

## İlham Əliyev Şuşada görülən işlərlə tanış olub

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Qarabağa səfər edib. Ölkə başçısı Füzuli rayonunda Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri və Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun...*

Səh.2

# UNİKAL

№14 (2099) 22 aprel 2022-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru



## Əbülfəs Qarayevin adı yeni korrupsiya qalmaqalında

Keçmiş nazir yüz minlərlə manatlıq yeyintidə günahlandırılan şirkəti niyə və necə himayə edirmiş?

***Hesablama Palatası Dövlət Turizm Agentliyinə ayrılmış dövlət vəsaitlərinin icrası üzrə uyğunluq auditinin nəticələrini açıqlayıb. Palatanın 2021-ci ildə fəaliyyəti haqqında hesabatda qeyd olunub ki, audit üzrə 2017-2018-ci illərdə malların (işlərin və xidmətlərin) satın alınması məqsədi ilə bağlanmış müqavilə ilə nəzərdə tutulmuş öhdəliklərinin yerinə yetirilməsi barədə, həmçinin "Azərbaycan Konqreslər Bürosu" MMC-nin fəaliyyətinə dair məlumatlarla bağlı aparılmış araşdırma nəticəsində cinayət işi başlanılıb. İstintaqın gedişində 862 min manat vurulmuş ziyan ödənilməsi təmin olunub.***

Səh.7



## Danışıqlar prosesini poza bilərlər: Növbəti "şimal təhlükəsi"

Səh.9

## "Azərbaycanda növbəti dəfə un və çörəyin qiyməti arta bilər"



*ReAl Partiyasının icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli "Unikal" qəzetinə müsahibə verib. O, ərzaq təhlükəsizliyi, qiymət artımı və digər məsələlərlə bağlı fikirlərini bölüşüb.*

*-Müharibə ilə əlaqədar olaraq əsas buğda idxal etdiyimiz Rusiya və Ukrayna demək olar ki, buğdanın ixracını dayandırıb.*

Səh.4

## Ziya Məmmədovun növbəti özünüifşası



*Yola salmaqda olduğumuz həftə öncə xəbər yayıldı ki, sabiq nəqliyyat naziri Ziya Məmmədovun adını daşıyan nəvəsi üçün bahalı "Mercedes Viano" markalı maşın alınıb, həmin avtomobil Türkiyədə daha lüks yığdırılıb, komfortlaşdırılıb. Hətta içində "unitaz"ı belə olan lüks maşında nəvə Ziyanın görüntüləri...*

Səh.8

## Məzahir Pənahov üçün gözlənilməz ssenari



*Yola salmaq üzrə olduğumuz həftə Hesablama Palatası Mərkəzi Seçki Komissiyasının (MSK) 2020-ci il üzrə maliyyə əməliyyatları və hesabatlarının auditinin nəticələrini açıqladı. Qurumun 2021-ci ildə fəaliyyəti haqqındakı hesabatından məlum oldu ki, aparılmış Kənar Dövlət Maliyyə Nəzarəti (KDMN) tədbiri...*

Səh.5

# Rəqqasələr arasında qalmaqal



***Rəqqasə Fatimə Fətəliyevanın oriyental rəqs barədə söyləydiyi fikirlər müzakirələrə səbəb olub.***

Tanınmış sima instaqram canlı yayımında çıxış edərkən "oriyental rəqsi özümə yaraşdırmıram. Ümumiyyətlə, Azərbaycan xanımına yaraşdırmıram",- şərhini verib.

Hazırda oriyental rəqs ilə məşğul olan Aytən Əliyeva və Renka (Rəna Ağamuradova) Fatimənin fikirlərinə münasibət bildirib.

OLAY-a danışan A.Əliyeva həmkarının sözügedən rəqs növü ilə sənətə gəldiyini bildirib:

"Fatimənin o sözü dediyinə qulağımla eşitməsəm, inanmaram. Çünki onun özü ilk dəfə oriyental rəqs oynayıb. O ki qaldı rəqs, geyim əxlaq göstəricisi deyil... Azərbaycanda bu "vastoçnaya" rəqs olduğu üçün bir az qəbul olunmaya bilər. Amma çox sevilir. Ən gözəl, dəbli, sanballı toylarda, xınalarda rəqqasələr çıxış edir. Onun o sözünə nə demək olar ki? Adamın gülməyi gəlir. Axı o da bu rəqslə çıxıb. Videoları da var. Hamımızın videoları yutubda yer alıb. Yəni kiminsə nəyisə gizlətməyə çalışması mümkün deyil. Fatimə də gizlətməyib. Həmişə deyib ki, əvvəllər oriyental oynayıb. İndi başqa rəqsə keçib. Mən isə dörd ildir hansısa bir məclisə getmirəm. İkinci biznesimlə məşğulam. Bunun səbəbi rəqqasəyə verilən pulun məni qane etməməsidir. Yoxsa kiməsə pis baxırlar deyə yox".

Renka isə bunun Fatimənin öz düşüncəsi olduğunu söyləyib: "Kiminsə fikrinə qarşı çıxası deyiləm ki, belə düşünmə. İnsandır, özü bilər, şəxsi fikridir. Mənim də düşüncəm kiminsə xoşuna gəlməyə bilər. Mən qalmaqal sevmirəm. Kiminsə mənim haqqımda nəsə deməsi vecimə deyil. Öz həyatımı yaşayıram, kim nə düşünür düşünsün. Başımı aşağı salıb işimi görürəm".




# "Tiktoka gəldiyim ay 36 min dollar qazanmışam" - Pərvin

***Aktrisa Pərvin Abıyeva tiktokdan qazandığı məbləği açıqlayıb.***

Bu barədə aktrisa "Tarixin bir günü" verilişində danışıb. Pərvin tiktoka gəldiyi ilk ayda 36 min dollar qazandığını bildirib:

"İndi deyirlər ki, bütün gününü tiktokda keçirirsən. Bir də görürsən heç girmirəm, qazanmıram. Amma olur ki, günə 3 min dollar pul gəlir. Tiktoka ilk gəldiyim ay 35-36 min dollar qazanmışam. O pulu özümə xərcləmədim. Qazanmağı sevən adamam. Əvvəl tiktokda qazanmaq olmurdu və ona görə də istifadə etmirdim. İndi isə oyunlara görə girirəm. Çünki nə yolla olursa-olsun pul qazanmağı sevən insanam. Kişi kimi bir varlığam, daşdan pul çıxarmağı bacarıram. Harada pul görürəmsə, ora qaçıram. Pulu yox, qazanmağı sevdiyimə görədir".

# Brilliant Dadaşova Amerikaya gedir...

***Xalq artisti Brilliant Dadaşova Amerikaya yola düşür.***

"Unikal" olay-a istinadən xəbər verir ki, sənətçi Vaşinqtonda baş tutacaq olan konsert üçün ABŞ-a yollanır.

Onun Nəzakət Teymurova və Abbas Bağırov kimi həmkarları ilə çıxış edəcəyi tədbirdən əldə olunan gəlir işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi üçün yaradılan fonda köçürüləcək.

# Biri 11, digəri 5 min izləyicisini itirdi - İnstaqramda nə baş verir?

***İnstaqram sosial media şəbəkəsində son günlər istifadəçilərin şikayətləri artıb.***

Buna səbəb platformanın istifadəçilərin izləyici sayını hər gün azaltması olub. Belə ki, kimi 2, kimi 3, kimi də 100 izləyicisini itirib. Şou-biznes nümayəndələri də son günlər izləyici saylarının geri getdiyindən şikayət ediblər.

Aparıcı İlhamə Bədəlova instaqramda 430 min izləyicisi olduğunu, hazırda sayın 428 minə düşdüyünü bildirib:

"Artıq bir neçə aydır səhifəmdən izləyiciləri oğurlayırlar. Bir gündə 4000 izləyici səhifəni tərk edə bilər? Məlumatı olan varsa yazsın. Saxta izləyici vurmamışam".

Müğənni Aysel Əlizadə də eyni problemlə üzləşdiyini deyib. O bildirib ki, hər gün min izləyici silinir.



Prodüser-aparıcı Tarix Əliyev isə "Heç kim izləyici oğurlamır, yalançı profillər, izləyicilər silinir. Çox adamda olur" reaksiyasını verib.

Müğənni Xuraman Şuşalı isə "Mənim də izləyicilərim 407 minə düşüb. 7 ildir səhifəmi açmışam. Heç bir "feyk" izləyici vurmamışam. Əvvəl 412 min izləyicim var idi. Son vaxtlar az paylaşım edirəm, düşündüm ki, bəlkə ona görədir" sözlərini əlavə edib.

Müğənni Ayan Babakişiyeva isə 11 min izləyicisini itirib: "Son 4-5 gündür instaqramda izləyici sayım azalır. 717 min izləyicim 706 minə düşdü. Araşdırdım, instaqram "feyk" və passiv istifadəçiləri silir. Yaş və başqa güvənlik əlavələri edir ki, aktiv səhifənizi təsdiq edəsiniz. Səhifənizi 13 yaşdan az uşağınızın, övladınızın adına açmısınızsa, yaxud parol, e-mail ünvanı, telefon nömrəsi artıq aktiv deyilsə, başqa üsullardan səhifənizi geri qaytara bilərsiniz".

Qeyd edək ki, son günlər instaqram istifadəçilərinə doğum tarixini təsdiqləməklə bağlı mesaj göndərir.




# 300 min seçicinin parlamentda təmsilçisi yoxdur

## Milli Məclisə təkrar seçki keçiriləcək?

***Azərbaycan parlamentində 7 seçki dairəsinin təmsilçisi yoxdur. Belə ki, 2020-ci ilin fevral ayında keçirilmiş növbədənkənar parlament seçkilərində Mərkəzi Seçki Komissiyası qanun pozuntularına görə 4 dairənin nəticələrini ləğv edib. Bu dairələr 33 saylı Xətai birinci, 35 saylı Xətai üçüncü, 74 saylı Lənkəran kənd və 80 saylı İmişli-Beyləqan seçki dairələridir.***

Bununla bərabər, 116 saylı Qəbələ seçki dairəsinin deputatı Fəttah Heydərov vəfat etdiyindən həmin dairənin də parlamentdə təmsilçisi yoxdur.

55 saylı Xaçmaz seçki dairəsindən deputat seçilmiş Eldəniz Səlimovun həbs edilməsi və törətdiyi cinayət faktının Apelyasiya Məhkəməsi tərəfindən təsdiqi ilə onun deputat səlahiyyətlərinə də xitam verilib.

50 saylı Abşeron-Qobustan seçki dairəsinin deputatı Şahin Seyidzadə isə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəhbəri təyin edildiyinə görə deputat mandatından imtina etmişdi.

Beləliklə, hazırda Milli Məclisdə 7 deputat yeri boşdur və bununla bağlı həmin dairələrdə təkrar seçkilərin keçirilib-keçirilməyəcəyi sual altındadır.

Mövzu barədə Modern.az-a danışan Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə bildirib ki, əslində təkrar seçkilər çoxdan keçirilməli idi. Qanuna görə, 6 ay müddətində boş dairələrə təkrar seçkilər elan edilməlidir: "Müəyyən obyektiv və subyektiv səbəblərə görə VI çağırış parlamentdə təkrar seçkilər baş tutmadı. Bütün hallarda bu, ölkə başçısının sərəncamı ilə həyata keçirilən prosesdir. Məndə olan məlumata görə, ölkə üzrə seçici siyahılarının dəqiqləşdirilməsi prosesi də aparılırdı".

Çingiz Qənizadə xatırladıb ki, Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci ildə qəbul olunarkən 82-ci maddəsində Milli Məclisin deputatlarının sayının 125 nəfər olduğu qeyd edilib. Hüquq müdafiəçisinin sözlərinə görə, o zaman 40-42 min seçiciyə bir millət vəkilinin olması nəzərdə tutulurdu: "Artıq 27 il keçib və Azərbaycan əhalisinin sayı 10 milyon nəfəri ötüb. Hazırda bir deputat 50 mindən çox seçicisi olan bölgəni təmsil etməli olur. Görünür ki, millət vəkillərinin yükü çoxdur. Seçki dairələrinin əraziləri böyükdür. Həm parlamentdə işləmək, nümayəndə heyəti kimi səfərlərdə olmaq, həm də 50 minə yaxın seçicinin müraciətlərinə baxmaq deputatlar üçün çətinlik yaradır.

Hesab edirəm ki, 7 dairədə seçkilərin keçirilməsi əvəzinə, seçki ilə bağlı islahatlara gedilməsinin zamanıdır. Digər dövlətlərin təcrübəsini götürmək lazımdır ki, bir deputat artıq 20-25, maksimum 30 min seçici ilə işləsin.

Seçki ilə bağlı islahatlar aparılacaqsa, majoritar seçki sistemindən proporsional sisteminə keçid təmin olunacaqsa, Konstitusiya islahatlarına ehtiyac olacaq. Mənə elə gəlir, dövlət bu barədə düşünür. Konstitusiya islahatları təxmini bir neçə il gecikəcəksə, indi 7 dairədə seçki keçirilməsi vacibdir. Çünki təxmini 300 min seçicinin parlamentdə təmsilçisi yoxdur. İslahatların isə zamanı çatıb, dövlət bu barədə düşünür və yaxın zamanda rəsmi məlumatların şahidi olacağıq".

# Ziya Məmmədovun növbəti özünüifşası

## İndiki dövrdə "dolanmaq" asan deyil, yoxsa camaatı dolamaq?!

***Yola salmaqda olduğumuz həftə öncə xəbər yayıldı ki, sabiq nəqliyyat naziri Ziya Məmmədovun adını daşıyan nəvəsi üçün bahalı "Mercedes Viano" markalı maşın alınıb, həmin avtomobil Türkiyədə daha lüks yığdırılıb, komfortlaşdırılıb. Hətta içində "unitaz"ı belə olan lüks maşında nəvə Ziyanın görüntüləri tanınmış türk iş adamı Erbakan Malkoç tərəfindən "Instagram"da paylaşılıb.***

Ardınca bununla bağlı açıqlama verən Ziya Məmmədov jurnalistləri boş-boş işlərlə məşğul olmaqda günahlandırdı: "Nə boş-boş işlərlə məşğulsunuz? Sizin işiniz-gücünüz yoxdur? Dünya doludur maşınla".

Yəni sabiq "nəqliyyat şefi" yayılan məlumatı nəinki təkzib etmədi, hətta öz ənənəsinə sadiq qalaraq, mətbuatı günahlandırdı. Absurd vəziyyətdir: bir keçmiş məmurun nəvəsinə anormal dərəcədə lüks avtomobil hazırlanmasında qeyri-adi heç nə görmür, lakin bunu xəbər edən media "boş-boş işlə məşğuldur", eləmi?!



Elə isə al gəldi...

Öncə onu qeyd edək ki, xüsusi olaraq lüks yığılan avtomobilin sahibi Ziya korrupsiyada ad çıxarmış keçmiş nəqliyyat naziri Z.Məmmədovun dəbdəbəli həyatı və şübhəli biznesi ilə məşhurlaşmış övladı Anar Məmmədovun oğludur. A.Məmmədov eyni zamanda sabiq kənd təsərrüfatı naziri, vəzifədə olarkən korrupsiya əməliyyatları ilə "ad çıxaran" Heydər Əsədovun kürəkənidir, bir az da dəqiqləşdirsək, onun qızı Fəridə ilə evlidir.

İkincisi: bu ilin əvvəllərində, fevral ayında sabiq nəqliyyat naziri Ziya Məmmədovun unikal.org saytına verdiyi bir açıqlama gündəmə bomba kimi düşmüşdü. Niyə də düşməsin?

Eks-nazir həmin açıqlamasında hazırda kənd təsərrüfatı işləri ilə məşğul olduğunu demişdi. Ziya müəllimin sözlərinə inansaq, Ucardakı evində yaşayır, əkib-becərir: "Artıq mənim başqa fəaliyyət növüm yoxdur. Rayonda arpa, buğda, yonca əkirəm. Mal-qaram var, dolanmaq lazımdır. İndiki dövrdə dolanmaq asan deyil..."

İndiki dövrdə dolanmağın asan olmadığını söyləyən Ziya müəllimin sözləri ictimaiyyət arasında ciddi ironiya hədəfinə çevrilmişdi, çünki adamlara inandırıcı görünməmişdi. Yüksək vəzifələr tutduğu uzun illər ərzində adı daim korrupsiyada hallanan, fantastik sərvəti barədə saysız-hesabsız faktlar dolaşan Məmmədovun bu gün guya mal-qara, arpa-buğda ümidinə qalması barədə söylədikləri təbii ki, səmimi qarşılana bilməzdi.

Uzağa getməyək, elə bu yaxınlarda onun adı Kanadaya məxsus "Bombardier Transportation" şirkətinin İsveçdəki törəmə şirkətinin keçmiş menecerinə qarşı başlanan cinayət işində keçirdi - o, nə az, nə çox, düz 100 milyonluq rüşvət almaqda günahlandırılırdı. Belə ki, 2013-cü ildə Bakını Gürcüstan sərhədi ilə birləşdirən dəmiryolunun bir hissəsini siqnal avadanlığı ilə təchiz etmək üçün keçirilən tenderdə "Bombardier"in başçılıq etdiyi konsorsium qalib gəlib. Şirkət meneceri Tomas Bimerə 2013-cü ildə Azərbaycanın Nəqliyyat Nazirliyi ilə bağlanmış müqavilə üzrə azərbaycanlı məmurlara "otkat" verdiyi barədə rəsmi ittiham irəli sürüb. Tomas Bimer xüsusilə ağırlaşdırılmış hallarda rüşvətlə ələ almada ittiham olunur. Cinayət işi artıq yekunlaşıb və Tomas Bimer tezliklə məhkəmə qarşısına çıxarılacaq. Prokurorlar bildirirlər ki, Azərbaycanda dəmir yollarına siqnalizasiya sistemlərinin quraşdırılmasını nəzərdə tutan 350 milyon dollarlıq müqavilədə "dəmir yollarının ən azından bir orta səviyyəli rəhbərinə" 100 milyon dollar rüşvət ödənilib.

Və yaxud yenə bu yaxınlarda Məmmədovla bağlı başqa bir ilginc ittiham ortaya çıxmışdı. Bildirilmişdi ki, onun vəzifədə olduğu dönəmdə Bakıdakı tunellərdən birinin inşasına fantastik məbləğdə - yarım milyon manatdan çox vəsait xərclənib!

İndi isə onun nəvəsi üçün ərəb şeyxlərinin, milyarderlərinin "sevimli oyuncağı" sayıla biləcək xüsusi avtomobil hazırlandığı ortaya çıxır. Bunda təəccüblü heç nə yoxdur: bu günün özündə də nəvə Ziyanın atası Anar Məmmədovun Londonda dəbdəbəli həyat sürdüyü barədə konkret faktlar sadalanır. Məsələn, məlum olur ki, oğul Məmmədov İngiltərə paytaxtında bahalı maşınlarla kef eləyir. Onun London ku?c?ələrində qiyməti 400.000 AZN olan Rols Royce su?rdüyü deyilir. Avtomobilin qeydiyyat no?mrəsi də diqqətçəkicidir: FI ANAR.

Kec?ən il isə onun İngiltərə paytaxtında sürdüyü maşın 500.000 AZN qiyməti olan Lamborgini imiş!

Hələ onu demirik ki, eks-nazirin oğlunun yaşadığı malikanənin dəyəri də bir neçə milyon manatla ölçülür. Hətta onun bir zamanlar 2 milyon 700 min funt sterlinqə aldığı mülkün dəyərinin hazırda 10 milyon funtadək bahalaşdığı barədə də iddialar var. Həmin iddialara görə, sözügedən mülk İngiltərə paytaxtının ən qiymətli ərazilərindən birində yerləşir.

Bir sözlə belə çıxır ki, ata Məmmədov Ucarda dolana bilmək üçün minbir əziyyətə qatlaşır, mal-qara dalınca qaçır, əkin-biçinlə əlləşir, ancaq oğul Məmmədov yarım milyonluq avtomobilləri, milyonlarla manatlıq malikanəsi, nəvə Ziya Məmmədov isə xüsusi hazırlanmış lüks maşın ilə həyatın dadını çıxarır. Belə bir absurda səmimi-qəlbdən inanmaq istəyən varsa, buyursun, inansın!

Bizə isə yalnız bunu yazmaq qalır: yalan hətta ayaq da açа bilər, ancaq heç bir halda yeriyə bilməz, uzaqbaşı axsayaraq getməyə çalışar və bir gün mütləq tappıltı ilə yerə sərilər...

Lap keçmiş nazir Ziya Məmmədovun rayonda arpa, buğda, yonca əkirəm, mal-qaram var, dolanmaq lazımdır, indiki dövrdə dolanmaq asan deyil..." sözlərinin karikaturaya çevrildiyi kimi!

Haqlısan, indiki dövrdə dolanmaq asan deyil, hörmətli Ziya müəllim, ancaq indiki dövrdə camaatı barmağına dolamaq da asan deyil. Bunu qətiyyən unutma!

*Sənan Mirzə*

# Danışıqlar prosesini poza bilərlər: Növbəti “Şimal təhlükəsi”

## Politoloq: “Ermənistan rəhbərliyinin Moskvaya çağrılmasının tək səbəbi - Kreml Avropa İttifaqının vasitəçiliyini əngəlləmək istəyir”



***Azərbaycanla Ermənistan arasında yekun sülh sazişinin imzalanması istiqamətində proses davam etsə də, gedişata əngəl törətmək istəyənlər də var. Belə ki, Ermənistanın baş naziri Nikol Paşinyan sülh sazişini imzalamağa hazır olduğunu bəyan etsə də, əks mövqedən çıxış edənlər də var. Xüsusən Brüssel görüşündən sonra Ermənistandakı bəzi qüvvələr, eləcə də Rusiyanın müəyyən siyasi dairələri Qərbin prosesdə bu qədər yaxından iştirak etməsindən narahat olmağa başlayıblar. Paşinyanın, ondan əvvəl xarici işlər nazirinin Rusiyaya dəvət olunması, müzakirələrin aparılması da Kremlin narahatlığından xəbər verir.***

Paşinyanın Rusiya səfərindən, Putinlə görüşündən sonra rəsmi Kreml məlumat yayıb. Bildirilib ki, tərəflər Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası üzrə komissiyanın yaradılması prosesini sürətləndirmək barədə razılığa gəliblər. Azərbaycan, Ermənistan və Rusiya liderlərinin müntəzəm görüşləri çərçivəsində konstruktiv işin davam etdirilməsinin və üç liderin noyabrın 10-da imzaladığı razılaşmaların ardıcıl şəkildə həyata keçirilməsinin tərəfdarı olduqları bildirilib. Tərəflər Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinlərinin birgə sədrliyi ilə Cənubi Qafqazda bütün iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının qarşısının alınması üzrə Üçtərəfli İşçi Qrupun fəaliyyətini aktivləşdirmək də qərara alınıb.

Məsələylə bağlı fikirlərini bölüşən Ədalət Partiyasının sədr müavini, siyasi şərhçi Elxan Şükürlü deyib ki, Putin-Paşinyan görüşünün mətbuata açıqlanan detallarından, verilən yekun bəyanatdan aydın olur ki, Rusiya prezidenti Ukrayna hadisələrindən həvəslənmiş Ermənistanın Qərbyönümlü baş nazirinə öz iradəsini növbəti dəfə qəbul etdirə və bundan sonrakı mərhələdə də onun Kremlin cızdığı trayektoriya ilə hərəkətə məcbur qaldığını yaxşıca anlada bilib: “Bu, ilk növbədə, Paşinyanın Rusiya əleyhinə Qərbin tətbiq etdiyi sanksiyaları qınayan və bu sanksiyalardan yayınmaq üçün də Rusiya ilə birgə hərəkət edəcəyinin ifadə olunduğu yekun bəyanatda öz əksini tapıb. Baxın, yekun bəyanatda deyilir: “Vladimir Putin və Nikol Paşinyan bir sıra ölkələrin birtərəfli məhdudlaşdırıcı tədbirlər tətbiq etməsindən narahat olduqlarını ifadə ediblər. Onlar iki ölkənin ərzaq və enerji təhlükəsizliyi, logistika və digər sahələrdə sanksiyaların səbəb olduğu çətinliklərin öhdəsindən birlikdə gəlmək niyyətlərini bildiriblər”. Halbuki bir neçə gün əvvəl ABŞ-ın Ermənistandakı səfiri xanım Linn Treysi erməni bankirlərlə keçirdiyi görüşdən danışaraq, onları Rusiyaya kömək göstərməkdən çəkinməyə çağırmış və ABŞ-ın Paşinyan hökumətinin sanksiyalara sadiqliyini çox yüksək qiymətləndirdiklərini bəyan etmişdi. Hətta Paşinyanın bəzi erməniqanlı azərbaycanlı pərəstişkarları da bəh-bəhlə ABŞ səfirinin bu bəyanatını tirajlayaraq, Azərbaycan hakimiyyətini sərt tənqidə və təhdidə başlamışdılar ki, niyə Ermənistan kimi davranmır, Rusiya əleyhinə sanksiyalara qoşulmur”.

Müsahibimiz deyib ki, indisə məlum olur ki, Qərbpərəst Paşinyan Kremlə çatan kimi, fikrini dəyişib: o, nəinki Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyaların yaratdığı çətinliklərdən narahatdır, hətta bundan sonra bu çətinliklərə qarşı Rusiya ilə birgə hərəkət etmək niyyətindədir: “Putin-Paşinyan görüşünün bizim üçün ən əhəmiyyətli detallarından biri isə, şübhəsiz ki, 44 günlük Qarabağ savaşından dərhal sonra Türkiyə prezidenti Ərdoğanın təklif etdiyi və Azərbaycan prezidenti Əliyevin də dəstəklədiyi “3+3 formatı”nın həm Rusiya, həm də Ermənistan tərəfindən artıq əsas Regional Əməkdaşlıq Platforması kimi qəbul edildiyinin dilə gətirilməsi, dolayısı ilə, bundan sonrakı mərhələdə regiondakı problemlərin məhz bu müstəvidə çözüləcəyinin anons edilməsidir. Yekun bəyanatda bu haqda deyilir: “Tərəflər bütün region ölkələri arasında dialoqu və çoxplanlı əməkdaşlığı inkişaf etdirmək üçün əlavə imkanlar yaradan "3+3" Regional Əməkdaşlıq Platformasının uğurla fəaliyyətə başlamasını qeyd ediblər”. Bu, o deməkdir ki, Ermənistan hakimiyyətinin süni şəkildə 10 noyabr, 11 yanvar və 26 noyabr razılaşmalarının icrasını uzatmaq cəhdləri bundan sonra həm də bütövlükdə regional əməkdaşlığın qarşısını kəsən əsas maneə kimi görüləcək və daha ona dözümlü yanaşılmayacaq, eyni zamanda, 6 apreldəki Brüssel görüşüylə Avropa İttifaqını da aktiv şəkildə prosesə qoşmaqla, region ölkələri arasında nəqliyyat-kommunikasiya xətlərinin işə düşməsinin və tərəflər arasında qalıcı sülh sazişinin imzalanması prosesinin tezləşdirilməsi təmin ediləcək. Qısası, bu görüşdən çıxan yekun nəticə odur ki, Rusiya hələ də Qərbin Cənubi Qafqaza girişinin önünü kəsməyə müvəffəq olur və onun “hamı üçün gərəkli körpü” statusunu qəbul etməklə yanaşı, məhz region ölkələrinin - Türkiyə, İran, Azərbaycan, Gürcüstan və Ermənistanın fəal əməkdaşlıq meydançasına çevrilməsində maraqlıdır. Belə də olmalıdır: region ölkələri öz evlərinin problemlərini özləri həll etməyi bacarmalı, ”yad əllər”in bu evlərdə hökmranlığına imkan verməməlidirlər”.

Politoloq Elxan Şahinoğlu isə bildirib ki, Ermənistanın baş naziri Nikol Paşinyan Moskvaya səfər etmədən bir gün əvvəl Rusiya prezidentinin mətbuat katibi Dmitri Peksov Paşinyanın Kremldə keçirəcəyi görüşün hazırkı beynəlxalq vəziyyətdə xüsusi əhəmiyyət kəsb edəcəyini bildirmişdi. Onun sözlərinə görə, buna görə də Ermənistan müxalifəti və Qarabağ separatçıları Nikol Paşinyanın Moskvada Ermənistan üçün məqbul olmayan hansısa sənədə imza atacağından narahat idilər: “Ermənistandakı “Qarabağ klanı” ilə Qarabağdakı separatçıların Rusiya ilə sıx əlaqələri var. Buna baxmayaraq, onlar Ukraynada ağır müharibənin fonunda həm də Rusiyanın sözünü eşitməyəcəklərini, əksinə, Kreml eyni ilə Brüssel kimi Nikol Paşinyanı Azərbaycanın ərazi bütövlüyünü tanımağa məcbur edə bilər. Müxtəlif istiqamətlərdən Paşinyana qarşı təzyiqlər başladı. Ermənistanın keçmiş təhlükəsizlik naziri, parlamentdə müxalifət blokunun rəhbərlərindən biri Artur Vanesyan İrəvanın mərkəzində fasiləsiz aksiya təşkil edib və tərəfdarlarını hər gün mərkəzi meydana çağırır. Artur Vanesyan keçmiş prezidentlər Robert Köçəryanla Serj Sərkisyanın təlimatlarını yerinə yetirir. Aksiyaya dəstək verənlər arasında Nikol Paşinyanın vaxtilə təyin etdiyi keçmiş xarici işlər naziri Ara Ayvazyan da var. O mediaya verdiyi açıqlamada Nikol Paşinyanın yalan danışdığını sübut etməyə çalışıb. Ara Ayvazyan Nikol Paşinyanın “beynəlxalq təşkilatlar məndən Qarabağla bağlı tələbin azaldılmasını tələb edirlər” fikrinə etiraz edərək onun nazir işlədiyi dövrdə guya belə bir tələblə üzləşmədiyini vurğulayıb. Paşinyana etiraz edənlər arasında daha bir keçmiş xarici işlər naziri Vardan Oskanyan da var”.

Politoloq onu da vurğulayıb ki, Nikol Paşinyan Moskvaya getməyə hazırlaşdığı saatlarda ona Avropa İttifaqının rəhbəri Şarl Mişel zəng etdi. Ermənistan Nazirlər Kabinetinin məlumatına görə, tərəflər aprelin 6-da Azərbaycan Prezidenti İlham Əliyevlə Brüsseldə keçirilən görüşdə əldə olunmuş razılaşmaların həyata keçirilməsi, eləcə də Ermənistan-Avropa İttifaqı münasibətlərinin gündəliyi ətrafında fikir mübadiləsi apardılar. Onun sözlərinə görə, bu telefon zəngi Kremli narahat edib: “Rusiya hakimiyyətinə yaxın siyasi ekspertlər Şarl Mişelin Moskva səfəri öncəsi Paşinyana telefon zəngini Brüsselin Rusiya əleyhinə addımı kimi dəyərləndiriblər. Vladimir Putin Kremldə Nikol Paşinyanla görüşün mətbuata açıq hissəsində dedi ki, Qarabağda hələ çox problem var. Bununla Kreml sahibi bölgədəki vəziyyətdən detallarına qədər xəbərdar olduğunu nümayiş etdirib. Bəli, Qarabağda problemlər var və bu problemi yaradanlar Rusiya hərbçiləri ilə erməni separatçıların birgə fəaliyyətidir. Vladimir Putinin bu açıqlamasından aydın oldu ki, Rusiya postlarının və Qarabağda Rusiya bayraqlarının sayının artırılması təlimatını elə Kreml sahibi verib. Putin daha sonra dedi ki, Paşinyanla Qarabağın təhlükəsizliyi məsələsini müzakirə edəcək. Kreml sahibi bu cümləsi ilə Qarabağın Ermənistana dəxli olmadığı reallığını qəbul etmək istəmir. Rusiya prezidenti Azərbaycana aid Qarabağ mövzusunu Ermənistanın baş naziri ilə müzakirə edirsə, burda xoş niyyət yoxdur. Kremldən yayımlanan bu xəbər Moskvanın atdığı addımlarla üst-üstə düşmür. Kreml İkinci Qarabağ müharibəsindən sonra eyni məzmunlu xəbərlər yayımlayır, ancaq ortada ciddi nəticə yoxdur. Kremlin vasitəçiliyi ilə nə sərhədlərin müəyyənləşməsiylə bağlı danışıqlar intensivləşib, nə də 3 ölkənin baş nazirlərinin müavinləri kommunikasiya xətlərinin açılması istiqamətində irəliləyiş əldə ediblər. Nikol Paşinyanın və daha əvvəl Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın qısa müddət ərzində Moskvaya çağırılmasının tək səbəbi var: Kreml Avropa İttifaqının vasitəçiliyini əngəlləmək istəyir. Brüssel Kremlin planlarından xəbərdardır və bilir ki, Moskva İrəvana təzyiq etməklə gedişatı poza bilər. Ona görə Avropa İttifaqının rəhbəri Şarl Mişel Paşinyana Moskvaya yollanmadan əvvəl zəng edib və izah edib ki, o Kremlin Brüsselin planlarını pozmağa imkan verməsin. Şarl Mişel Cənubi Qafqaz üzrə nümayəndəsi Toivo Klaarı Bakıya göndərdi. Paşinyan Moskvada ikən prezident İlham Əliyev Toivo Klaarla görüşdü və ona bildirdi ki, rəsmi Bakı Brüsselin faydalı vasitəçiliyinə önəm verir. Əslində Paşinyan da Brüsselin vasitəçiliyindən faydalanmaq istəyir, sadəcə ona Kreml və Rusiyanın Ermənistandakı vassalları mane olur”.

E.Şahinoğlu onu da qeyd edib ki, Nikol Paşinyanın Moskvadan hansı tələb və tapşırıqla qayıdacağını onun Ermənistan parlamentində ilk çıxışında anlayacağıq: “O, bir həftə əvvəl Qarabağla bağlı dediklərini təkrarlasa demək Azərbaycanın ərazi bütövlüyünü tanımaq qərarından vaz keçməyib, yox əgər yenidən ”status” mövzusunu gündəmə gətirsə demək Kremlin təzyiqləri öz işini görüb”.

***Z.Məmmədli***

# Prezident onları orden və medallarla təltif etdi



***Prezident İlham Əliyev Azərbaycan diasporunun inkişafında xidmətlərinə görə bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsində xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilirlər:

**"Dostluq" ordeni ilə**

Əliyev Eldar Ağabala oğlu
Əliyeva Adilə Seyfulla qızı
Krapivin Oleq Andreyeviç
Məmmədov Əmirullah Məmmədəli oğlu
Nisanov Qod Semyonoviç
Şıxlinski Şahin Mütvəli oğlu

**"Tərəqqi" medalı ilə**

Abdullayev Çingiz Əli oğlu
Abdullazadə Xatirə Sərdar qızı
Avşarov Rauf Muxtar oğlu
Bağırova Frəngiz Arif qızı
Cavadova-Spitsberq Cəmilə Cəlil qızı
Əhmədov İlham Ənvər oğlu
Həsənov İmamyar Fikrət oğlu
Qayıblı Xaqani İsmayıl oğlu
Qonçarova-İoffe Kamelliya Kamal qızı
Muradov Nazim Zirəddin oğlu
Nəcəfov Hacalı Nəcəf oğlu.

# İlham Əliyev Şuşada görülən işlərlə tanış olub

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Qarabağa səfər edib.***

Ölkə başçısı Füzuli rayonunda Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri və Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin tikintisi ilə tanış olub.

İlham Əliyev aprelin 21-də Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olub.



# Generallar Ermənistanla sərhəddə

***Aprelin 19-21-də Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev və Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev DSX-nin Sərhəd Qoşunlarının "Qubadlı" və "Qazax" əlahiddə sərhəd diviziyalarının hərbi hissə və bölmələrinə səfər ediblər.***

Bu barədə "Unikal"a DSX-nin Mətbuat Mərkəzindən məlumat verilib. Bildirilib ki, səfər çərçivəsində ölkəmizin ərazi bütövlüyü bərpa edildikdən sonra Ermənistan ilə dövlət sərhədində zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarının icra vəziyyəti yoxlanılıb.



Dövlət sərhədinin etibarlı mühafizəsinin təşkili istiqamətində həyata keçirilən fəaliyyətlər, o cümlədən sərhəd yollarının çəkilməsi, ərazidə hərəkətin təmin edilməsi üzrə tikinti-quruculuq işləri və təhlükəsizlik tədbirləri nəzərdən keçirilib, sərhəd-döyüş məntəqələrində xidmət aparan sərhədçilərlə görüşülüb, hərbi qulluqçuların xidməti-döyüş və məişət şəraitləri ilə tanış olunub.

Son bir il ərzində azad edilmiş ərazilərdə 19 yeni hərbi hissənin, 100-dən artıq sərhəd döyüş məntəqəsinin fəaliyyətə başlamasının böyük əhəmiyyəti vurğulanıb.

Əlahiddə sərhəd diviziyalarının rəhbər heyətlərinin iştirakı ilə xidməti müşavirələr keçirilib, vəzifəli şəxslərin xidməti ərazidə mövcud olan əməliyyat şəraiti və görülən tədbirlər haqqında məruzələri dinlənilib, hərbi hissə və bölmələrin döyüş hazırlığının daha da yüksəldilməsinin, dövlət sərhədinin toxunulmazlığının və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi üzrə zəruri tapşırıq və tövsiyələr verilib.

Səfər çərçivəsində səhra təlim mərkəzində DSX-nin taktiki təlimləri izlənilib.

# Vahid Ələkbərov "Lukoyl"un rəhbərliyindən getdi



***Azərbaycan əsilli rusiyalı iş adamı, milyarder Vahid Ələkbərov "Lukoyl" şirkətinin Direktorlar Şurasından və şirkətin rəhbəri vəzifəsindən ayrılıb.***

"Unikal" xəbər verir ki, bu barədə "Lukoyl" şirkəti rəsmi məlumat yayıb.

Şirkət bəyan edib ki, V. Ələkbərov nəzarət paketinin sahibi deyil. O birbaşa səhmlərin cəmi 3,12%-nə, həmçinin səsvermə hüququ olmayan fondlar vasitəsilə 5,43%-ə sahibdir.

Xatırladaq ki, Ukraynadakı müharibə səbəbindən Rusiya milyarderləri arasında ən çox itki verən iş adamı Vahid Ələkbərov olub. O, bu il 14 milyard dollar, yəni sərvətinin 60 faizini itirib.

"Bloomberg"in qiymətləndirməsinə əsasən, hazırda Vahid Ələkbərovun sərvəti 8,8 milyard dollardır. Azərbaycan əsilli iş adamı müharibənin dayandırılması üçün dəfələrlə Rusiya rəhbərliyinə müraciət edib.

# Mayın 1-də Azərbaycanda xüsusi karantin rejimi ləğv edilir...

***Azərbaycanda xüsusi karantin qaydalarının daha da yumşaldılması və əksər pandemiya qadağaların aradan qaldırılması ilə bağlı müzakirələr intensivləşir. Artıq əksər ölkələr, tibbi maskdan və vaksin sertifikatından istifadə kimi tələbləri ləğv ediblər. Hətta bu məsələlərə konservativ yanaşan liberal Birləşmiş Ştatlar da yeni yumşaldılmalar barədə qərar verib.***

Bu barədə danışan Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, karantin qaydalarının ləğvi real sektorun və xüsusən də turizimin inkişafı baxımdan vacibdir.

Deputat deyib ki, 2021-ci ildə formalaşmış Ümumi Daxili Məhsulun (ÜDM) 1,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin payına düşüb: "Bu o deməkdir ki, turizm və əlaqəli sahələr ötən il 1 milyard 207 milyon manatlıq yeni dəyər formalaşdıra biliblər. Pandemiyadan əvvəlki il turistlərin yerləşdirilməsi və ictimai iaşənin ÜMD-də payı 2,4 faiz idi. Göründüyü kimi, karantin tədbirləri səbəbindən turizm və ictimai iaşənin iqtisadiyyatda payı 85 faiz bəndə yaxın azalıb. Doğrudur, ÜDM-in məbləğindəki ötən ilki artım bu sektorların payına təsirsiz ötüşməyib. Amma reallıq bundan ibarətdir ki, karantin qaydalarının ən çox təsir etdiyi sektorlar məhz turizm və ictimai iaşədir. Artıq yeni turizm mövsümü başlayır. 2019-cu ilə ölkəyə 3.2 milyon turist gəlmişdisə 2021-ci ildə pandemiya səbəbindən bu rəqəm 791,8 minədək azalıb".

Deputat bildirib ki, bu baxımdan, quru sərhədlərinin mərhələli açılışı, vaksin sertifikatı ilə bağlı tələblərin aradan qaldırılması ölkəyə gələn turistlərinin sayının kəskin artmasına səbəb ola bilər: "Turizm neftdən sonra



Azərbaycana ən çox valyuta gətirən sektordur. Pandemiyadan öncə illik turizm gəlirləri 2.7 milyard dollara yaxın idi. Bu sektor həmçinin məşğulluğa da xüsusi töhvə verir. Bu baxımdan, əksər Qərb ölkələrində olduğu kimi Azərbaycanda da xüsusi karantin qaydalarının daha yumşaldılması turizm daxil olmaqla bir sıra sektorlar üçün əlavə imkanlar yaradacaq".

Qeyd edək ki, Azərbaycanda pandemiya dövründə epidemioloji vəziyyət nəzərə alınaraq dəfələrlə uzadılmış xüsusi karantin rejiminin müddəti 1 may 2022-ci ildə başa çatır. Bu səbəbdən də aprelin son ongünlüyündə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən karantinin ləğv ediləcəyilə bağlı qərarın açıqlanacağı gözlənilir.

# Koronavirusa yoluxanların sayı artdı



***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 33 yeni yoluxma faktı qeydə alınıb, 19 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 1 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 792 445 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 782 603 nəfər müalicə olunaraq sağalıb, 9 707 nəfər vəfat edib. 135 nəfər aktiv xəstə sayını təşkil edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 4 472, bu günə qədər isə ümumilikdə 6 785 398 851 test icra olunub.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# "Güllələnmiş heykəllər"in Azərbaycana qaytarılmasına 500 min dollar xərclənib

***Erməni işğalı nəticəsində qarət edilərək Gürcüstana aparılan "Güllələnmiş heykəllər"in alınmasına xərclənən məbləğ açıqlanıb.***

"Unikal" xəbər verir ki, bunu Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov "Qarabağın və Şərqi Zəngəzurun Memarlıq İrsi. Bərpa, Qorunma və istifadə problemləri" adlı Beynəlxalq Elmi Konfransda çıxışı zamanı qeyd edib.

O bildirib ki, heykəllərin alınması və Azərbaycana gətirilməsi üçün 500 min dollar xərclənib: "O heykəllərin Gürcüstanda metal kimi satılmasına cəhd olmuşdu. Gürcüstan hökümətinin köməyi ilə heykəllər alınaraq, Azərbaycana gətirilib. Artıq həmin heykəllər bərpa edilib və Şuşada, öz tarixi yerindir".



İcraçı direktor eyni zamanda, kilsələrdən 800 yaşı olan freskanın ermənilər tərəfindən oğurlanması faktını da diqqətə çatdırıb: "2000-ci ilin 23 dekabrında erməni keşiş müsahibəsi zamanı etiraf etmişdi ki, kilsədəki 800 illik freskanı qoparıb Ermənistana aparmışıq".

***Anar Kəlbiyev***

# Ukraynada təhsil alan azərbaycanlı tələbələrlə bağlı rəsmi açıqlama

***Hazırda Ukraynada dövlət xətti ilə təhsil alan Azərbaycan Respublikası vətəndaşı yoxdur.***

Bu barədə "Unikal" Təhsil Nazirliyindən bildirilib.

Qeyd edilib ki, şəxsi vəsaiti və ya digər təqaüd proqramları hesabına təhsil alan tələbələr təhsillərini digər ölkələrdə davam etdirə, habelə yay aylarında transfer.edu.az xidməti aktivləşdirildikdə Azərbaycanda təhsillərini davam etdirmək üçün köçürülməyə müraciət edə bilərlər.

"Təhsil Nazirliyi yalnız dövlət hesabına təhsil alan tələbələrin qeydiyyatını aparmaqdadır. Şəxsi vəsaiti və ya digər təqaüd proqramları hesabına təhsil alanların ölkəyə giriş-çıxışı ilə bağlı məlumat Təhsil Nazirliyində mövcud deyil. Lakin, son dövrlər Ukraynadan geri dönmüş vətəndaşlarımızın Təhsil Nazirliyinə edilən fərdi müraciətləri qeydə alınır və aidiyyəti üzrə yönləndirilir", - deyə əlavə edilib.



# "BakuBus" MMC-nin yeni alınan avtobuslardan istifadə etmədiyi üzə çıxıb

***"BakuBus" MMC tərəfindən yeni avtobuslara olan real illik tələbatdan artıq avtobus alışına yol verilib.***

"Unikal" xəbər verir ki, bu, Hesablama Palatasının "BakuBus" MMC-nin 01.01.2019-cu il tarixindən 01.0.2021-ci il tarixinədək olan dövrdə maliyyə fəaliyyətinə dair kənar dövlət maliyyə nəzarəti tədbiri zamanı üzə çıxıb.

Kənar dövlət maliyyə nəzarəti həmin illərdə bu qurum tərəfindən istifadə olunmuş ümumilikdə 80,0 mln. manata yaxın vəsaiti əhatə edib.

Qeyd olunub ki, yeni avtobuslara olan real illik tələbatdan artıq avtobus alışına yol verilməsi ilə yanaşı nəqliyyatın hərəkəti tezliyinin sərnişin dövriyyəsi ilə nisbətinin kifayət qədər optimallaşdırılmaması və yeni marşrut xətlərinin müəyyənləşdirilməməsi şəraitində dövlət vəsaitləri hesabına alınan avtobusların son 5 ildə orta hesabla 25,4 %-i depoda istifadəsiz saxlanılıb. Əlavə olaraq 320 ədəd sərnişin avtobusunun hazırkı məlum alış prosesi də nəzərə alınmaqla cari vəziyyətdə qeyd olunan faiz nisbətinin daha da artacağı gözlənilir.



Deponun sərnişindaşıma potensialından optimal şəkildə istifadə olunmaması isə öz növbəsində "BakuBus" MMC-nin müntəzəm sərnişindaşıma sahəsi üzrə gəlirlərinin tam reallaşdırılmaması, maliyyə öhdəliklərinin qarşılanması səviyyəsinin məhdudlaşması ilə nəticələnir. Eyni zamanda təmir xərcləri üzrə maliyyə öhdəliklərinin vaxtında icra olunmaması da avtobusların depoda boş dayanma günlərinin artmasına səbəb olur.

"BakuBus" MMC-nin balansında olan 303 ədəd "İveco" markalı sərnişin avtobusundan 198 ədədinin istismarının dayandırılması müxtəlif nasazlıqların vaxtında təmir olunmaması səbəbindən baş verib. Avtobus parkının bərpa olunması məqsədilə mövcud vəziyyətin aradan qaldırılması və təmir işləri üçün resursların cəlb edilməsi əvəzinə istismara yararsız həmin 198 avtobusun 80-dən (40,4%-dən) istifadəyə yararlı müxtəlif ehtiyat hissələrinin sökülərək istismar olunaraq digər avtobuslara quraşdırılması hallarına yol verilməsi təmirə ehtiyacı olan avtobusların daha da yararsız vəziyyətə düşməsi nəticələnib.

# Məcburi köçkünlər doğma yurda qayıdışla bağlı fikirlərini bölüşür

***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi işğaldan azad edilmiş ərazilərdə, ata-baba yurdlarında yaşamağı, qurub yaratmağı planlaşdıran məcburi köçkünlərin fikir və duyğularının yer aldığı video-çarxlar hazırlayır.***

"Unikal" xəbər verir ki, Vətən həsrəti bitən həmvətənlərimiz hər zaman Prezident İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın diqqət və qayğısı ilə əhatə olunduqlarını bildiriblər. Qeyd ediblər ki, dövlət başçısının rəhbərliyi ilə məcburi köçkünlərin geri qaytarılması üçün işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən kompleks tədbirləri yaxından izləyirlər. Görülən işlər nəticəsində tezliklə oranın məcburi köçkünlərin layiqli yaşayışı üçün əlverişli vəziyyətə gətiriləcəyini ifadə ediblər.

Video-çarxlarda müxtəlif peşə sahibi olan məcburi köçkünlər öz peşəsi barədə məlumat verib, fəaliyyətlərini bundan sonra işğaldan azad olunmuş yerlərdə davam etdirəcəklərini, doğma yurdlarının ən abad guşələrdən birinə çevrilməsi üçün gənclərin də dəstək verməsinin əhəmiyyətini qeyd ediblər. Videolayihə əsasında çəkilişlər davam etdirilir.

Növbəti video çarxda Zəngilan rayon sakini Bəhruz Ağalarov təəssüratlarını bölüşüb.

# Agentlik Laçın dəhlizinə alternativ yolla bağlı məlumat yaydı

***Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolunun inşasını davam etdirir.***



"Unikal" xəbər verir ki, yeni avtomobil yolunun uzunluğu 32 km təşkil edir. 2 hərəkət zolaqlı olacaq yolun layihə üzrə hərəkət hissəsinin eni 7 metr, torpaq yatağının eni 12 metr, çiyin hissələrin eni isə 2x2,5 (5 m) metr təşkil edəcək.

Hazırda yolboyu genişmiqyaslı tikinti işləri aparılır. Layihəyə uyğun olaraq torpaq yatağının tikintisi, suni qurğuların inşası işləri görülür. "İnşaat Norma və Standartları"na uyğun olaraq yararsız qrunt, həmçinin torpaq yatağının genişləndirilməsi üçün bitki qatının qazılaraq çıxarılması işləri görülür, xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndirilərək profilə salınması və yeni torpaq yatağının inşası həyata keçirilir.

Çətin relyefə malik olan ərazidən keçən yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə dairəvi borular və müxtəlif süni qurğuların tikintisi də icra olunur. Bu çərçivədə yolun 22-ci km-də inşa edilən və uzunluğu 139,5 metr olan 4 aşırımlı körpüdə hazırda tikinti işləri son mərhələdə olmaqla icra olunur.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində bütün avtomobil yolları iri yaşayış məntəqələrindən kənar keçməklə layihələndirilir. Bu isə həmin yaşayış məntəqələrində yaşayacaq əhalinin, həm də yoldan istifadə edəcək vətəndaşların rahatlığı baxımından önəmli aspektlərdən biridir.

Tikinti işlərinin cari il ərzində yekunlaşdırılması üçün əraziyə lazımi sayda qüvvə cəlb olunub.

# Vilayət Eyvazov polkovniki işdən çıxardı



***Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəis müavini, polis polkovniki Rəhim Novruzov vəzifəsindən azad edilib.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun imzaladığı müvafiq əmrlə R.Novruzov xidmətdə olmanın son yaş həddi ilə əlaqədar təqaüdə göndərilib.

Qeyd edək ki, R.Novruzov uzun illər daxili işlər orqanlarında xidmət edib. O, xeyli müddət Laçın və Cəlilabad rayonlarının polis rəisi vəzifəsini tutub.

# Fərid Qayıbov rəisi işdən çıxardı - Yeni təyinat

***Neftçala rayon Gənclər və İdman İdarəsinin rəisi Yalçın Miriyev vəzifəsindən azad edilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, bununla bağlı gənclər və idman naziri Fərid Qayıbov əmr imzalayıb.Nazirin digər əmri ilə, Yalçın Miriyevin yerinə Araz Əhmədov təyinat alıb. Qeyd edək ki, o bu təyinatadək Neftçala Rayon Təhsil Şöbəsində aparıcı məsləhətçi vəzifəsində çalışıb.

***Anar Kəlbiyev***

# Şuşada beynəlxalq konfrans keçiriləcək

***Şuşada beynəlxalq konfransın keçirilməsi gözlənilir.***




"Unikal" xəbər verir ki, bunu Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev jurnalistlərə açıqlamasında bildirib.

Onun sözlərinə görə, konfrasın aprel ayının sonunda baş tutması planlaşdırılır:

"Beynəlxalq konfrans BMTM və ADA Universitetinin təşkilatçılığı ilə keçiriləcək. Eyni zamanda Şuşada yaxın aylarda Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin beyin mərkəzlərinin iclası da olacaq".

# "Azərbaycanda növbəti dəfə un və çörəyin qiyməti arta bilər"

## Natiq Cəfərli: "Baha alınmış taxıldan istehsal olunmuş un və çörəyin yüksək qiymətə satılması qaçılmaz olacaq. Bu səbəbdən də dövlət tərəfindən müəyyən dotasiyalar verilməlidir"

***ReAl Partiyasının icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli "Unikal" qəzetinə müsahibə verib. O, ərzaq təhlükəsizliyi, qiymət artımı və digər məsələlərlə bağlı fikirlərini bölüşüb.***

***-Müharibə ilə əlaqədar olaraq əsas buğda idxal etdiyimiz Rusiya və Ukrayna demək olar ki, buğdanın ixracını dayandırıb. Digər buğda idxal etdiyimiz Qazaxıstan da bu məhsulun ixracatına qadağalar tətbiq edir. Belə olan halda digər ölkələrdən buğda almaq lazım olur ki, bu da idxal xərclərini artırır. Bu zaman növbəti dəfə un məmulatlarının və çörəyin qiyməti bahalaşacaqmı?***

-Hansı ölkədən alınmasından asılı olmayaraq, son bir ayda dünya bazarlarında buğdanın qiyməti yenidən artıb. Yol xərcinin də bunun üzərinə əlavə edilməsi ilə yanaşı buğdanın özünün qiymətində artım var. Azərbaycan indi Hindistan və Qazaxıstanla danışıqlar aparır. Fevral və mart ayında Qazaxıstandan buğda alışı kifayət qədər artıb. Amma buna baxmayaraq qiymət yenə də dəyişib. Ötən ilin birinci rübü ilə müqayisədə ölkəyə idxal edilən buğdanın dəyəri 30,6% artıb, həcmi isə 2,7% azalıb. Bu onu göstərir ki, yeni məhsul çıxana qədər qiymət artımı davam edəcək. Bəlkə yeni məhsul çıxandan sonra bir qədər ucuzlaşma olsun. O da məhsuldarlıqdan asılı olacaq. Dünyanın əsas taxıl anbarları hesab olunan ölkələrdə (Kanada, Misir və s.) taxıl bolluğu olarsa, o zaman bəlkə qiymətlərdə müəyyən ucuzlaşma olsun. İndiki şəraitdə qiymətin yaxın zamanlarda aşağı düşməyəcəyini demək mümkündür. Bu da Azərbaycanda növbəti dəfə un, un məmulatlarının və çörəyin qiymətinin artmasına səbəb ola bilər. Belə ki, baha qiymətə alınmış taxıldan istehsal olunmuş un və çörəyin yüksək qiymətə satılması məcburiyyəti olacaq. Bu səbəbdən də dövlət tərəfindən müəyyən dotasiyalar verilməlidir. Hələki bununla bağlı müzakirələr belə yoxdur.

***-Son zamanlar bir çox məhsulların qiymətində artımlar var. Bu artımların qarşısını almaq üçün hansı addımlar atılmalıdır?***

-Qiymət artımlarının obyektiv və subyektiv səbəbləri var. Obyektiv səbəblərdən biri odur ki, dünyada ərzaq qiymətləri indeksi sürətlə artır, Rusiya-Ukrayna müharibəsinin başlamasından sonra bu proses daha da sürətlənib. Hər iki ölkə dünyanın ərzaq bazarında mühüm yer tutur. Dünya bazarında günəbaxan və qarğıdalı yağının 58 faizi bu iki ölkənin payına düşür ki, bu da çox böyük rəqəmdir. Müharibənin indiki geosiyasi vəziyyəti dünya bazarlarına kifayət qədər ciddi təsir edir. Bu da qiymət artımına səbəb olur. Azərbaycan idxaldan asılı ölkədir və ərzaq məhsullarının böyük bir hissəsini kənardan idxal edir. Rəsmi rəqəmlərə görə, bizdə təminatın 50 faizi yerli məhsulların, 50 faizi isə idxal məhsullarının hesabına formalaşır. Ölkəmizdə yerli istehsal adı altında bazarda olan məhsulların bir çoxunun xammalı xaricdən gətirilir. Azərbaycanda yerli şirkətlər adından satılan günəbaxan və qarğıdalı yağı var ki, onların heç biri yerli istehsal deyil. Onlar əsasən Ukrayna və Rusiyadan böyük vaqonlarla alınır və ölkəmizə gətirilərək qablaşdırılır. Statistik göstəricilərdə yerli istehsal sayılsa da, əslində belə deyil. Bu məsələlərdə xaricdən ciddi asılılığımız var. Xaricdən bu qədər asılıyıqsa, orada baş verən qiymət artımları Azərbaycana təsir göstərəcək. Bunun çıxış yolu yerli istehsalın təşviqi və artırılmasıdır. Bunun üçün isə zaman lazımdır. Azərbaycan hökuməti burada uzun zaman itirib. Yəni, 2000-ci illərin əvvəlində böyük neft pulları gələn zaman özümüzün ərzaq təminatı ilə bağlı strategiya hazırlamalı idi. İndi başlasaq belə bunun üçün bir neçə il lazımdır. Dəqiq işləmək lazım olacaq ki, bir neçə növ məhsul üzrə yerli tələbatımızı özümüz ödəyə bilək. Qısa zamanda qiymət artımlarının qarşısını almaq üçün addımlar atıla bilər. Nazirlər Kabineti Azərbaycanda istehsalı olmayan və ya az olan əsas ərzaq məhsulları üzrə gömrük rüsumlarını, əlavə dəyər vergisini sıfırlaya bilər. Bir çox məhsullar üzrə 15 faiz gömrük rüsumu, 18 faiz ƏDV var. Bu, xaricdən gətirilən məhsulların sərhəddi keçərkən 35-36 faiz bahalaşmasına səbəb olur. Bahalaşmanın ilkin mərhələdə qarşısını almaq üçün ən azından ilin sonuna qədər müxtəlif növ ərzaq məhsullarına tətbiq edilən vergi və gömrük rüsumları ləğv edilməlidir.

***-Bir neçə ildir ki, müzakirə olunan Rəqabət Məcəlləsi hələ də qəbul olunmayıb. Bu Məcəllənin qəbul olunması ilə nələr dəyişəcək?***

-Rəqabət Məcəlləsi 2008-ci ildə birinci oxunuşda qəbul olunub. Onun üzərindən 14 il ötüb. Hələ də parlamentdə digər oxunuşlardan keçməyib. Buna səbəb müxtəlif lobbi qruplarının maraqlarıdır. Ölkəyə məhsul gətirən, daxili istehsalla məşğul olan böyük şirkətlər var ki, onlar Rəqabət Məcəlləsinin gətirəcəyi müəyyən çətinlikləri, problemləri istəmədiklərinə görə özlərinə yaxın çevrələr və deputatlar vasitəsilə bu məsələnin qəbulunu gecikdirdilər. Digər tərəfdən Rəqabət Məcəlləsi qəbul olunan kimi effekt verməyəcək. Bunun üçün zaman lazımdır. İstənilən halda bu Məcəllənin qəbul olunması ölkədə qanunvericilik bazasının formalaşması, rəqabətli mühitin yaranması üçün yaxşıdır. Məcəllənin qəbul olunması digər qanunların da müasirləşməsinə, rəqabətin daha açıq şəkildə gətirilməsinə kömək edəcək.

***-Azərbaycanın digər ölkələrə ixrac etdiyi məhsullardan biri də pomidordur. Ölkəmizdə bu məhsulun qiyməti bahadır. Bunun səbəbi nədir?***

-Pomidoru ixrac edirik deyə daxildə qiymət düşmür. Ölkəmizdə pomidor istehsalı böyük sürətlə artmır. Hər il 20-30 faiz artım olsa idi, həm daxili bazarı təmin edərdik, həm də xaricə ixrac artardı. Bizdə ixrac artdıqca daxili bazarda məhsul qıtlığı yaranır ki, bu da qiymətlərin yüksəlməsinə səbəb olur. Ötən ilin məlumatlarına görə pomidorun ixrac qiyməti 1 dollar 23 sent olub. Xaricə satılan pomidorun qiyməti onu deməyə əsas verir ki, Azərbaycanda bundan aşağı qiymətə satmaq çətindir. Yerli istehsalın artırılması ilə bağlı ciddi irəliləyiş olmalıdır ki, həm daxili bazarı təmin edək, həm də ixracat artsın.

***-İlin sonuna kimi dolların məzənnəsində hər hansı bir dəyişiklik ola bilərmi?***

-Obrazlı desək, Azərbaycan manatı kağız neftdir. Neftin qiyməti nə qədər yüksəkdirsə, manata ciddi bir təhlükə yoxdur. Qiymətlərin belə yüksəldiyi, inflyasiyanın çoxaldığı dövrdə hökumətin və Mərkəzi Bankın devalvasiyaya getməsi ehtimalı sıfıra bərabərdir. Bu, yüksək olan inflyasiyanı daha da artıra bilər. Neftin indiki qiymətində devalvasiya olmayacaq. Hətta neftin qiyməti 60 dollara qədər düşsə belə devalvasiya təhlükəsinin qarşısını almaq mümkündür. Qiyməti 60 dollardan aşağı düşərsə, dünyada geosiyasi vəziyyət dəyişərsə, o zaman manata basqılar artacaq. İndiki halda dolların məzənnəsinin dəyişməsi mümkünsüzdür.

***-Rusiya-Ukrayna müharibəsi 55 gündən çoxdur ki, davam edir. Bu savaş dünya iqtisadiyyatına ciddi təsir göstərir. Bu baxımdan, qiymət artımlarının davam edəcəyi gözlənilirmi?***

-Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun son hesabatları onu deməyə əsas verir ki, müharibənin, digər geosiyasi gərginliklərin, sanksiyaların dünya iqtisadiyyatına təsirləri davamlı şəkildə ola bilər. Yaxın iki ildə dünyada yüksək inflyasiyanın qalacağı bildirilir. Yüksək inflyasiya qaldıqca, bütün məhsulların qiyməti artır. Bunların Azərbaycana tək təsiri qiymət artımı və inflyasiyanın yüksəlməsi ilə bağlı deyil. Ölkəmizin əsas gəlir mənbəyi neftdir. Bu baxımdan, xarici bazarlarda dollarla alış qiyməti də yüksəlir. Belə ki, dolların alıcılıq qabiliyyəti aşağı düşür. Bu gün ABŞ-da inflyasiya 8 faizdir və bu son 40 ilin ən yüksək göstəricisidir. Bu onu göstərir ki, dünya iqtisadiyyatında dalğalanmalar var. Hazırda ölkələr ixracdan daha çox daxili bazarı qorumaq haqqında düşünürlər. Əsasən ərzaq məhsullarında ixraca qadağa qoyurlar ki, daxili bazarda bolluq yaransın. Bu amillər ən azından yaxın iki il ərzində dünyada dalğalı iqtisadi durum olacağını vəd edir.



***-Hazırda ən çox müzakirə olunan məsələlərdən biri də qapalı məkanlarda maska tələbinin ləğv olunması və quru sərhədlərin açılması ilə bağlıdır. Yaxın vaxtlarda bu məsələlərin aradan qaldırılması gözlənilirmi?***

-Artıq pandemiya ilə bağlı vəziyyət bitib. Dünyanın bir çox ölkələri məhdudiyyətləri götürüblər. Buna misal olaraq Avropa Birliyi ölkələrini, ABŞ-ın bir çox ştatlarını göstərmək olar. Azərbaycanda da pandemiya rejimi kifayət qədər yumşaldılıb. Amma bir neçə məhdudiyyət qalıb ki, onlardan biri də qapalı məkanlarda maska tələbidir. Bu isə mənasızdır. Belə ki, adi tibbi maskanın virusdan qorumadığı elm tərəfindən sübut olunub. Xüsusi maskalar var ki, onlar insanı koronavirusdan qoruyur. Həmin maskalar xüsusi istehsala malikdir. Bizim aldığımız adi maskalar isə effektiv deyil. O baxımdan qapalı məkanlarda maskadan istifadə tələbi ləğv edilməlidir. Bununla yanaşı quru sərhədlər də açılmalıdır. Sərhədlərin bu qədər bağlı qalması anlaşılan deyil. Qonşularımızın hamısı quru sərhədlərini açıb. Ümid edirəm ki, mayın 1-dən bütün bu məhdudiyyətlər aradan qaldırılacaq və həm Azərbaycanın, həm də dünyanın gündəmindən pandemiya birdəfəlik silinəcək. Quru sərhədlərinin açılmasının iqtisadiyyata xeyri olacaq. Yenidən sərhədyanı ticarət canlanacaq. Hesablamalara görə, quru sərhədlər açılsa, turizm sahəsində gəlirlər 2 dəfədən çox arta bilər ki, bu da daxildə turizm obyektlərinin canlanmasına səbəb olacaq.

***Anar Kəlbiyev***

# Məzahir Pənahov üçün gözlənilməz ssenari

## Hesablama Palatasının MSK-da aşkarladığı pozuntular nə(lər) vəd edir?

***Yola salmaq üzrə olduğumuz həftə Hesablama Palatası Mərkəzi Seçki Komissiyasının (MSK) 2020-ci il üzrə maliyyə əməliyyatları və hesabatlarının auditinin nəticələrini açıqladı.***

Qurumun 2021-ci ildə fəaliyyəti haqqındakı hesabatından məlum oldu ki, aparılmış Kənar Dövlət Maliyyə Nəzarəti (KDMN) tədbiri nəticəsində bir sıra pozuntular aşkarlanıb. Müəyyən edilib ki, dövlət qulluğuna qəbul üzrə imtahanından və müsahibədən ibarət olmaqla müsabiqə əsasında və "Dövlət qulluğu haqqında" qanunun tələblərinə uyğun həyata keçirilməli olduğu halda, 50 nəfər işçi dövlət qulluğunun inzibati vəzifələrinə birbaşa təyin edilməklə dövlət qulluqçusu kimi işə qəbul olunub və onlara əməkhaqqı ilə yanaşı dövlət qulluqçuları üçün nəzərdə tutulmuş əlavələr ödənilib.

Qeyd olunan hal və dövlət qulluğuna qəbul qaydalarının pozulmasının dövlətin kadr potensialına mənfi təsir riski nəzərə alınaraq, göstərilən qaydada işə qəbul edilmiş şəxslərin hüquqi statusunun "Dövlət qulluğu haqqında" qanuna uyğunluğu ilə bağlı yaranmış məsələnin qiymətləndirilməsi üçün Milli Məclisə, Dövlət Qulluğunu İdarəetmə Şurasına və Dövlət İmtahan Mərkəzinə təkliflər göndərilib.

Bundan əlavə, əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi bununla bağlı elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsi ilə daxil edilmiş əmək bildirişinin həmin elektron informasiya sistemində qeydiyyata alınmasından və bu barədə işə götürənə elektron qaydada məlumat göndərilməsindən sonra əmək müqaviləsi hüquqi qüvvəyə mindiyi halda və eyni zamanda əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsilə daxil edilməsi ilə bağlı əmək müqavilələri barədə məlumatların müvafiq olaraq elektron informasiya sistemində qeydiyyata alınması üçün təqdim edilmədiyi halda 877 nəfər işə qəbul olunub. Onu da

bildirək ki, Hesablama Palatasının MSK-da apardığı yoxlamalar nəticəsində ciddi pozuntuların aşkarlanması təsadüfi sayılmır. Sözügedən qurumun maliyyə əməliyyatlarında önəmli nöqsanlara yol verildiyi barədə yerli media bir müddətdir ki, yazırdı.

İndi həmin pozuntuların Hesablama Palatasında təsdiqlənməsi isə müəyyən mülahizələrə yol açır. Bəzi ekspertlərin fikrincə, bu, MSK-nın hazırkı sədri Məzahir Pənahovun yaxın vaxtlarda yola salınacağına dair mesaj kimi də qəbul oluna bilər.

Xatırladaq ki, Pənahov 1998-2000-ci illərdə MSK-nın Beynəlxalq Əlaqələr İdarəsinin rəisi işləyib. 2000-ci il mayın 19-da MSK üzvü təyin olunub və həmin gün komissiyaya sədr seçilib.

22 ildir MSK-ya sədrlik edən Məzahir Pənahov bu müddət ərzində 3 referendum (2002, 2009, 2016), 4 prezident (2003, 2008, 2013, 2018), 5 parlament (2000, 2005, 2010, 2015, 2020) və 4 bələdiyyə (2004, 2009, 2014, 2019) seçkisi keçirib.

Hələ 2020-ci ildə Mərkəzi Seçki Komissiyasının yeni tərkibinin parlamentin yaz sessiyasında formalaşdırılacağı proqnoz edilsə də, bu, gerçəkləşməmişdi. Məsələ burasındadır ki, yeni parlament formalaşan kimi MSK-nın da tərkibi təsdiqlənməli idi. Lakin iki il öncə bunun reallaşmaması bəzi KİV-lərdə Məzahir Pənahovun yaxın vaxtlarda sədrlikdən gedəcəyi barədə informasiyaların yer almasına gətirib çıxardı. Bu informasiyalar sonradan reallaşmadı və Pənahov MSK sədri olaraq qaldı.

Lakin elə o vaxtdan Məzahir müəllimin bu postda uzun müddət qərar tutmayacağına dair fikirlər geniş yayıldı.

Ehtimal ki, Hesablama Palatasının MSK-da aşkarladığı pozuntular bu fikirlərin tezliklə gerçəkləşə biləcəyinin siqnalıdır.

Əlbəttə, nəzərə alsaq ki, 2021-ci ilin aprelin sonlarında Pənahov yenidən Mərkəzi Seçki Komissiyasının sədri seçilib. Qanuna görə, MSK üzvlərinin səlahiyyət müddəti var. MSK sədrinin səlahiyyət müddəti isə MSK üzvlərinin səlahiyyət müddəti çərçivəsində həll olunur. Komissiyanın səlahiyyət müddəti 5 il - yeni parlament formalaşdırılana qədər davam edir. Yeni parlament formalaşanda komissiya üzvləri yenilənir.

Lakin bu məqam da var - Mərkəzi Seçki Komissiyasının üzvlərinin üçdə ikisi nə vaxt hesab etsə ki, sədr dəyişdirilməlidir, həmin vaxt müvafiq qərar qəbul edilir.

Unutmayaq ki, 2020-ci ilin aprelində ölkənin Mərkəzi Bankının İdarə Heyətinin sədri postuna növbəti 5 il müddətində yenidən sədr təyin edilən Elman Rüstəmov cəmi iki il sonra, bu yaxınlarda vəzifəsindən kənarlaşdırıldı. Belədə eyni ssenarinin Məzahir Pənahovla bağlı da işə düşə biləcəyi tamamilə istisna olunmamalıdır...

***Orxan Həsənli***



# Palata bir sıra dövlət qurumlarında yoxlama apardı

***2021-ci ildə Hesablama Palatasının Kollegiyasının qərarına əsasən, 2 nəzarət tədbiri üzrə müvafiq materiallar Baş Prokurorluğa təqdim edilmişdir.***




"Unikal" xəbər verir ki, bu barədə Palatanın ötənilki fəaliyyəti ilə bağlı hesabada bildirilir.

Sənədə əsasən, həmin təqdimatlarla bağlı zəruri tədbirlər həyata keçirilib. Hesabat ilində Dövlət Turizm Agentliyinə ayrılmış dövlət vəsaitlərinin icrası üzrə uyğunluq auditi üzrə 2017-2018-ci illərdə malların (işlərin və xidmətlərin) satın alınması məqsədilə bağlanmış müqavilə ilə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsi barədə, həmçinin "Azərbaycan Konqreslər Bürosu" MMC-nin fəaliyyətinə dair müvafiq məlumatlarla bağlı aparılmış araşdırma nəticəsində cinayət işi başlanılıb, istintaqın gedişində 862min manat vurulmuş ziyanın ödənilməsi təmin edilib, Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutuna ayrılmış dövlət vəsaitlərinin icrası üzrə uyğunluq auditi üzrə malların (işlərin və xidmətlərin) satınalma prosesindən zəruri məlumatların qanunvericiliklə nəzərdə tutulduğu qaydada rəsmi internet saytında yerləşdirilməməsi və vəsaitlərin satınalma keçirilmədən icrası halları, həmçinin ayrılmış vəsaitlərin iqtisadi təsnifat kodu üzrə təyinatının dəyişdirilməsi ilə bağlı məlumata baxılıb, inzibati məsuliyyətə cəlb etmə müddəti (3 ay) keçdiyindən toplanmış material üzrə inzibati xəta haqqında işin rədd edilməsi barədə qərardad qəbul edilib.

Dövlət büdcəsindən Azərbaycanın Ukraynadakı Səfirliyinin inzibati binasının əsaslı təmirinə ayrılan vəsaitlər ilə bağlı aparılan audit üzrə məhkəmə müvafiq hökm verib, Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun auditi üzrə istintaq zamanı cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın (əldə edilmiş gəlirin) ayrı-ayrı epizodlara və şəxslərə münasibətdə məbləği müəyyən edilib, xüsusi müsadirənin təmin edilməsi məqsədi ilə 0,9 milyon manat məbləğində bank əmanətlərinin və 37,1 milyon manat dəyərində əmlakların üzərinə həbs qoyulub, məhkəməyə qədər icraat zamanı ziyanın (əldə edilmiş gəlirin) ödənilməsi məqsədi ilə təqsirləndirilən şəxslərin ümumilikdə 1,3 milyon manat məbləğdə pul vəsaitini Baş Prokurorluğun depozitinə yerləşdirib, cinayət işi aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ayrılan vəsaitlərin istifadəsinə dair aparılan audit üzrə təqsirləndirilən şəxs barəsində müvafiq məhkəmə hökm verib, Təhsil Nazirliyinin 1 saylı Maliyyə Hesablama Mərkəzinə ayrılan büdcə vəsaitlərin və büdcədənkənar daxilolmaların proqnozlaşdırılması və icrasına dair aparılmış audit üzrə cinayət nəticəsində vurulmuş ziyanı və vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında dövlət büdcəsinə ödəniş təmin edilməklə cinayət işi üzrə icraata xitam verilib, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti üzrə daxilolmaların və xərclərin proqnozlaşdırılması və icrasının qanunvericiliyə uyğunluğunun yoxlanması zamanı aşkar edilmiş dövlət əmlakından qeyri-qanuni istifadə halları barədə aparılmış araşdırmalar ilə hüquqpozmaların cinayət əməlinin tərkibini yaratmadığı müəyyən edilib.

Kənd Təsərrüfatı yanında Aqrar Kredit və İnkişaf Agentliyinin müvəkkil kredit təşkilatı olan "Para Bokt" ASC-nin verdiyi kreditlər üzrə 5 halda ümumilikdə 211 858 manat ayrılmış vəsaitin təyinatı üzrə istifadə edilməməsi ilə bağlı materiallar 5 dekabr 2020-ci ildə cinayət işinə əlavə edilməklə 212 min manat məbləğində ödənilməmiş kredit vəsaitinin tam şəkildə bərpası təmin edilib. Bundan əlavə, 2021-ci ildə Hesablama Palatasının əməkdaşları Dövlət Təhlükəsizlik Xidmətinin həyata keçirdiyi bir nəzarət tədbirində iştirak ediblər.

***Murad***



## Hesablama Palatası Dünya Bankının aqrar layihəsindəki çatışmazlıqları açıqladı

***Hesablama Palatası "Kənd təsərrüfatının rəqabət qabiliyyətinin gücləndirilməsi" layihəsi üzrə müəyyən olunmuş hədəflərə nail olunma səviyyəsinin qiymətləndirilməsi mövzusunda keçirilmiş səmərəlilik (performans) auditinin nəticələrini açıqlayıb.***

"Unikal" Hesablama Palatasının ötənilki fəaliyyəti ilə bağlı hesabatına istinadən xəbər verir ki, auditin əhatəsi "Kənd təsərrüfatının rəqabət qabiliyyətinin gücləndirilməsi" layihəsinin ümumi dəyəri 53,3 milyon ABŞ dolları təşkil edib ki, bunun da 34,5 milyon ABŞ dolları Dünya Bankının krediti, 18,8 milyon ABŞ dolları isə hökumətin payından ibarətdir.

Audit layihənin əvvəlindən (2014-cü il) 2020-ci il 31 dekabr tarixinədək olan dövrü əhatə edib. Əsas şərhlər layihənin məqsədi ölkədə sanitar və fitosanitar xidmətlərin səviyyəsinin yüksəldilməsi, seçilmiş dəyər zəncirlərinin qurulması və aqrobiznes müəssisələrinə maliyyə xidmətlərinin göstərilməsi yolu ilə kənd təsərrüfatı məhsulları istehsalçılarının bazarlara çıxışının asanlaşdırılmasından ibarət olub.

Əldə olunmuş nəticələr və əlaqəli sahə üzrə institusional islahatlar nəticəsində layihənin icrasında ləngimələrin baş verməsinə və bu səbəbdən icra müddətinin uzadılmasına gətirib çıxarıb.

Layihə çərçivəsində ölkədə iri və xırda buynuzlu heyvanlarda bruselyoz xəstəliyinə qarşı yeni mübarizə strategiyası həyata keçirilmiş və nəticə etibarı ilə xəstəliyin yayılma faizi ümumi olaraq aşağı ensə də, bəzi rayonlarda (əsasən sərhəd, dağ və mal bazarına yaxın ərazilərdə olan sürülərdə) baytar həkimlərinin məlumatlarına görə heyvanların indentifikasiya olunmaması, sərhəd keçid məntəqələrindən idxal olunan diri heyvanların epizootik durumuna nəzarətin lazımi qaydada olmaması, heyvanların daxili yerdəyişmələrinin nəzarətsiz qalması, kəskin baytar həkim çatışmazlığı, xəstə heyvanların dövriyyədən xaric edilməsi mexanizminin tətbiq edilməməsi kimi səbəblərdən xəstəliyin yayılma faizi artıb.

Belə ki, Azərbaycan hökumətinin iştirak payının nəzərdə tutulduğu həcmlərdə və müvafiq icra qrafikinə uyğun dövlət büdcəsindən ayrılmaması nəticəsində 2020-ci il 31 dekabr tarixinə layihənin müvafiq bank hesabında 11,1 milyon manat məbləğində vəsait qalığı formalaşıb. Qeyd edilməlidir ki, hökumət payı olaraq dövlət büdcəsindən layihənin müvafiq hesabına 10,2 milyon manat məbləğində sonuncu ödəniş 2020-ci il 20 mart tarixində həyata keçirilib.

## Ağdamın Cümə və Qiyaslı məscidinin bərpasına başlanılacaq

***"Azad olunan ərazilərdə 706-sı dövlət qeydiyyatda olmaqla 2600-dən çox tarixi mədəniyyət abidələri var".***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli deyib.

Xidmət rəisi bildirib ki, Şuşa qalası, Xudafərin körpüləri, Gəncəsər, Xudavəng Monastrı, Qutlu Musa türbəsi, 1.5 milyon illik yaşı olan Azıx mağarası Qarabağ və Şərqi Zəngəzurda dünya əhəmiyyətli tarix mədəni abidələrdir.

O qeyd edib ki, həmin abidələrdən bəziləri bərpa edilib.

"Bunlardan Üzeyir Hacıbəylinin heykəli, Mola Pənah Vaqifin büstü və məqbərəsi, Bülbülün ev muzeyi artıq bərpa edilib. Bunların ardında Aşağ və Yuxarı Gövhər Ağa, Saatlı məscidləri bərpası işləri davam etdirilir. Yaxın zamanlarda Ağdam Cümə, Qiyaslı məscidinin bərpasına başlanılacaq. Paralel olaraq Üzərliktəpədə də arxeoloji işlər aparılır. Bu işlər yekunlaşdıqdan sonra ərazidə infrastruktur layihələrinin icrası nəzərdə tutulur".

***Anar Kəlbiyev***

# Mehdi Səlimzadəyə növbəti şok...

## Göyçayda yüksək vəzifəli şəxslərin həbsi davam edir - sabiq icra başçısı ətrafında çəmbər daralır?

***Göyçay Rayon İcra Hakimiyyəti ətrafında qalmaqallı xəbərlərin ardı-arası kəsilmir. Bu dəfə Göyçay şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Rəşad Şükürovun tutulduğu məlum oldu.***

Belə ki, Baş Prokurorluq yola salmaq üzrə olduğumuz həftə Göyçay Rayon İcra Hakimiyyətinin əməkdaşının həbs edilməsi barədə məlumat yayıb.

Məlumatda bildirilib ki, qanunsuz tikinti-quraşdırma işlərinin aparılması və digər qanun pozuntusu faktları ilə əlaqədar Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işinin istintaqı aparılır. Hazırda Göyçay RİH başçısının şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi vəzifəsində işləyən Şükürov Rəşad Əlibala oğlunun İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri vəzifəsində işləyərkən digər vəzifəli şəxslərdən ibarət korrupsiya şəbəkəsinin üzvləri ilə qabaqcadan əlbir olub. Səlahiyyətlərindən sui-istifadə edərək vəzifəli şəxslərdən xidməti vəzifələrinin icrasına davam etmələri üçün rüşvət verməyəcəkləri təqdirdə işdən çıxarılacaqları ilə bağlı hədə-qorxu gələrək xidməti otağında onlardan rüşvət alması əsaslı şübhələr müəyyən edilib.

İş üzrə toplanmış sübutlar əsasında Rəşad Şükürova Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 311.3.1 (rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) və 311.3.4 (rüşvət alma hədə-qorxu tətbiq olunmaqla törədildikdə) maddələri ilə ittiham elan edilməklə barəsində həbs qətimkan tədbiri seçilib.

İş üzrə istintaq davam edir.

Xəbəri maraqlı edən isə odur ki, bu, adıçəkilən rayonun yerli icra hakimiyyəti ilə bağlı son vaxtlar yayılmış ilk həbs xəbəri deyil. Belə ki, Göyçayın sabiq icra başçı Mehdi Səlimzadənin köməkçisi Vahid İsayev martın ortalarında məhkəmə qarşısına çıxarılmış və barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilmişdi.

Qeyd edək ki, İsayevin konkret nədə və yaxud nələrdə ittiham olunduğu bəlli deyil. Bircə bu məlumdur ki, o, ötən 15 il ərzində M.Səlimzadə də daxil olmaqla, 5 icra başçısının köməkçisi vəzifəsində çalışıb. Hazırda isə çalışdığı qurumdakı qanun pozuntuları ilə bağlı ittiham edildiyi deyilir.

O da ilgincdir ki, bütün bu hadisələrdən əvvəl, bir az da dəqiqləşdirsək, fevralın 28-də Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə vəzifəsindən azad edildi. Bundan sonra isə ictimaiyyətdə onun həbs edilə biləcəyi barədə iddialar dolaşmağa başladı.

Həmin iddiaları Səlimzadə postundan kənarlaşdırıldıqdan təxminən on gün sonra yayılan bir məlumat daha da gücləndirdi. Bu məlumatda deyilirdi ki: "Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Göyçay Rayon İcra Hakimiyyətində yoxlamalar aparır. Yoxlamalar icra hakimiyyətində yol verilmiş bəzi qanun pozuntuları ilə bağlıdır. Məlumata görə, Rayon İcra Hakimiyyətinin bir neçə vəzifəli şəxsi artıq dindirilib".

Ötən saylarımızın birində də vurğuladığımız kimi, bundan iki gün sonra Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən Göyçay Rayon İcra Hakimiyyətində yoxlamaların hələ də davam etdirildiyi bildirilirdi. Qeyd edilirdi ki, əvvəl rayon icra hakimiyyətinin başçısı vəzifəsindən azad edilmiş Mehdi Səlimzadə də artıq iş üzrə dindirilib.

Ardınca yerli mətbuat yazmağa başladı ki, Göyçay Rayon İcra Hakimiyyətində aparılan yoxlamalar zamanı üzə çıxan qanun pozuntuları Mehdi Səlimzadənin azadlıqdan məhrum edilməsi üçün kifayət qədər əsaslar yaradır.

Lakin proses hələ ki, fərqli istiqamətdə cərəyan edir və sabiq başçının yaxın adamı olduğu söylənilən R.Şükürov həbs olunub. Qarşıda bizi yeni həbs xəbərlərinin gözləyib-gözləmədiyini bilmirik. Bununla belə, görünən odur



ki, Göyçay Rayon İcra Hakimiyyətindəki yoxlamaların nəticələri ürəkaçan deyil və həmin nəticələr çoxlarına başağrısı yaradacaq.

M.Səlimzadənin də sözügedən siyahıda olub-olmadığını zaman göstərəcək. Baxmayaraq ki, Azərbaycan mediası onu "iri məmurlarla qohumluq əlaqəsi olan, bununla da "toxunulmazlıq statusu" qazanan şəxslərdən" sayır. Ancaq unudulmamalıdır ki, son illər ölkə başçısının kadr islahatları "toxunulmaz şəxs" anlayışını tarixin arxivinə göndərib. Ən "köklü-budaqlı" məmurların belə vəzifədən azad edilməsi, onların törətdikləri əmələ görə cavab verməyə məhkum olması, korrupsiya ilə məşğul olan məmurların ən sərt şəkildə cəzalandırılması faktlarına tez-tez rast gəlirik.

Prezident çıxışlarında qanunları pozan şəxslərin heç bir güzəşt edilmədən cəzalandırılacağını dəfələrlə bəyan edib. Hətta belə şəxslərin əvvəlki xidmətlərinin də nəzərə alınmayacağını bildirib.

Odur ki ciddi qanun pozuntularına yol verdiyinə dair əsaslı şübhələr ortaya çıxarsa Göyçayın sabiq icra başçısını da ciddi cəza tədbirinin gözləməsi qaçılmazdır.

Onu da deyək ki, Göyçayda yüksək vəzifəli şəxslərin davam edən həbsini bəziləri rayonun sabiq rəhbəri ətrafında çəmbərin daralması kimi də qiymətləndirir. Bunun nə qədər doğru ehtimal olub-olmadığını isə şübhəsiz ki, zaman göstərəcək...

***Toğrul Əliyev***

# Əbülfəs Qarayevin adı yeni korrupsiya qalmaqalında

## Keçmiş nazir yüz minlərlə manatlıq yeyintidə günahlandırılan şirkəti niyə və necə himayə edirmiş?

***Hesablama Palatası Dövlət Turizm Agentliyinə ayrılmış dövlət vəsaitlərinin icrası üzrə uyğunluq auditinin nəticələrini açıqlayıb. Palatanın 2021-ci ildə fəaliyyəti haqqında hesabatda qeyd olunub ki, audit üzrə 2017-2018-ci illərdə malların (işlərin və xidmətlərin) satın alınması məqsədi ilə bağlanmış müqavilə ilə nəzərdə tutulmuş öhdəliklərinin yerinə yetirilməməsi barədə, həmçinin "Azərbaycan Konqreslər Bürosu" MMC-nin fəaliyyətinə dair məlumatlarla bağlı aparılmış araşdırma nəticəsində cinayət işi başlanılıb. İstintaqın gedişində 862 min manat vurulmuş ziyan ödənilməsi təmin olunub.***

Xatırladaq ki, Dövlət Turizm Agentliyi ölkə başçısının 20 aprel 2018-ci il tarixli "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam"ına əsasən Mədəniyyət və Turizm Nazirliyinin əsasında yaradılıb. Həmin vaxt nazirliyə isə sonradan məhz korrupsiya əməlləri səbəbilə postunu itirən Əbülfəs Qarayev rəhbərlik edirdi.



Məhz Qarayevin nazir olduğu dövrdə "Azərbaycan Konqreslər Bürosu" MMC ən çox Bakı Şopinq Festivallarının təşkilatçılığı ilə məşğul olub. MMC tərəfindən 2017-2018-ci illərdə təşkil edilmiş ümumilikdə üç belə festival üzrə ayrı-ayrı telekanallarda reklamların ödənişsiz əsaslarla yerləşdirildiyi halda, reklam xidmətlərinə görən nazirlik tərəfindən qeyd edilən cəmiyyətə xüsusilə külli miqdarda büdcə vəsaiti ödənildiyi aşkarlanıb. Bundan əlavə, araşdırmalarla nazirlik tərəfindən müxtəlif xidmətlərin göstərilməsinə dair müqavilələrin icrası zamanı heç bir təsdiqedici sənədlər olmadan büdcə vəsaitinin silinməsinə yol verildiyi, həmçinin tədbirlərin keçirilməsi ilə bağlı icarə xərcləri üzrə artıq büdcə vəsaitinin ödənildiyi də müəyyən edilib.

Nəhayət, 2021-ci ilin iyul ayında dövlət büdcəsindən turizmin inkişafı məqsədilə ayrılan vəsaitlərin mənimsənilməsi faktı ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda mənimsəmə və ya israf etmə) və 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanılıb.

Maraqlıdır ki, sabiq nazir Əbülfəs Qarayev bu qədər iri korrupsiya əməliyyatlarına yol vermiş MMC direktorunu cəzalandırmaq əvəzinə, mükafatlandırıb! Belə ki, "Azərbaycan Konqreslər Bürosu"nun rəhbəri Ülviyyə Mir-Qasımova Qarayev tərəfindən "Fəxri turizm işçisi" döş nişanı ilə təltif edilib.

Bundan başqa, məhz sabiq nazirin sayəsində adıçəkilən şirkətin rəhbəri "Bakı 2015" Avropa Oyunları Əməliyyat Komitəsinin üzvü olub. Ü.Mir-Qasımova həmin komitə əməkdaşlarının bir qismi ilə bərabər 2015-ci ildə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunub.

Bundan bir il sonra isə Birinci Avropa Oyunları ilə bağlı informasiya mübadiləsi, kütləvi informasiya vasitələri və ictimaiyyətlə əlaqələr üzrə strategiyanın işlənib hazırlanması və həyata keçirilməsində səmərəli fəaliyyətinə görə "United Business Media Group" (UBM Group) şirkətinin təsisçisi xanım Ülviyyə Mir-Qasımova "Kütləvi informasiya vasitələri ilə əlaqələr üzrə ilin adamı" mükafatı ilə təltif edilib. Mükafatlandırma mərasimində həmin vaxt hələ də mədəniyyət və turizm naziri postunu tutan Əbülfəs Qarayev də iştirak və çıxış edib.

2017-ci ildə isə Qarayevin iştirak etdiyi tədbirdə Ü.Mir-Qasımovaya növbəti mükafat təqdim olunub. Belə ki, mayın 24-də "Bulvar Hotel"də Bakı Şopinq Festivalının keçirilməsində əməyi olan bir qrup şəxsin mükafatlandırılma mərasimi keçirilib. Tədbirdə çıxış edən sabiq nazir sözügedən festivalın qısa müddətdə təşkil olunmasına baxmayaraq uğurlu nəticələrlə yekunlaşdığını deyib, "1 ay müddətində Bakının əsas ticarət mərkəzlərinin, mağazalarının qoşulduğu bu festivaldan turistlərlə yanaşı, yerli sakinlər də geniş yararlandığını" vurğulayıb. Sonra isə festivalın keçirilməsində əməyi olan bir qrup şəxsə mükafatlar təqdim olunub. Onların arasında isə "Azərbaycan Konqreslər Bürosunun" direktoru Ü.Mir-Qasımova da vardı.

Bir qrup şəxsə isə nazirliyin fəxri fərmanı təqdim olundu.

Bəzi iddialara görə, Ü.Mir-Qasımova sabiq nazirin həyat yoldaşı, öz biznes fəaliyyəti ilə tanınan Lalə Kazımovanın yaxın rəfiqəsidir. Bildirilir ki, məhz bu səbəbdən də "Azərbaycan Konqreslər Bürosu" direktorunun adı Qarayevin rəhbərlik etdiyi nazirliyin xətti ilə həyata keçirilən layihələrdə ön plana çıxıb.

O da maraqlıdır ki, hazırda nizamnamə kapitalı 100 manat və qanuni təmsilçi Mir-Qasımova Ülviyyə Eldar qızı olan MMC-nin İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinə 5 min 847 manat 06 qəpik borcu yaranıb.

# Azərbaycandan Ukraynaya növbəti humanitar yardım göndərilir

***Azərbaycan dövləti tərəfindən Ukrayna xalqına humanitar yardım məqsədilə dərman vasitələri, tibbi sərfiyyat malları və ərzaq məhsullarından ibarət növbəti yardım bugün yola salınır.***

Xarici İşlər Nazirliyindən "Unikal"a verilən məlumata görə, ümumi çəkisi 170 tondan artıq olan humanitar yardıma 3.37 milyon manat məbləğində dərman vasitələri və tibbi sərfiyyat malları, eləcə də 1 milyon manat məbləğində ərzaq məhsulları daxildir.

Humanitar yükü Varşava hava limanına çatdırmaq üçün ilk təyyarə 21 aprel saat 14:30-da Ukraynanın ölkəmizdəki səfirinin iştirakı ilə Heydər Əliyev adına Beynəlxalq Hava Limanından yola salınacaq.

Xatırladaq ki, Ukraynadakı vəziyyətlə əlaqədar ölkə rəhbərliyinin tapşırığı ilə Azərbaycan tərəfindən cari ilin 27 fevral və 12 mart tarixlərində Ukraynaya, eləcə də 15 aprel tarixində ukraynalı qaçqınlar üçün Moldovaya ümumi məbləği 23.2 milyon manatdan artıq olan 550 tona yaxın humanitar yardım göndərilib.

Beləliklə, Azərbaycan Respublikasının Ukraynadakı böhranla bağlı göstərdiyi humanitar yardımın ümumi məbləği 27.6 milyon manat (təxminən 15 milyon avro), çəkisi isə 720 ton təşkil edir.

# "Azərbaycanda maska qadağasının ləğvi gözlənilir" - TƏBİB

***"Azərbaycanda maska qadağasının ləğvi gözlənilir".***

"Unikal" xəbər verir ki, bunu TƏBİB-in sədri vəzifəsini icra edən Vüqar Qurbanov bildirib.

Onun sözlərinə görə, ancaq bununla bağlı tarix dəqiq deyil: "Azərbaycanda karanetin rejimi ilə bağlı hazırda qüvvədə olan məhdudiyyətlərin ləğvi ilə bağlı təkliflər Nazirlər Kabineti yanında Operativ Qərargaha göndərilib.Bu qərarın may ayının birinə, yoxsa yarım saata olacağını isə dəqiq deyə bilmərik. Nəticələr yaxın günlərdə ictimaiyyətə açıqlanacaq".

# Sərhədlərin açılması ölkəyə gələn turistlərin sayını artıracaq

***Azərbaycanda xüsusi karantin qaydalarının daha da yumşaldılması və əksər pandemiya qadağaların aradan qaldırılması ilə bağlı müzakirələr intensivləşir.***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, əksər ölkələr, tibbi maskadan və vaksin sertifikatından istifadə kimi tələbləri ləğv ediblər.

"Hətta bu məsələlərə konservativ yanaşan liberal Birləşmiş Ştatlar da yeni yumşaldılmalar barədə qərar verdi. Karantin qaydalarının ləğvi real sektorun və xüsusən də turizimin inkişafı baxımından vacibdir. 2021-ci ildə formalaşmış Ümumi Daxili Məhsulun 1,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin payın düşüb. Bu o deməkdir ki, turizm və əlaqəli sahələr ötən il 1 milyard 207 milyon manatlıq yeni dəyər formalaşdıra biliblər. Pandemiyadan əvvəlki il turistlərin yerləşdirilməsi və ictimai iaşənin ÜMD-də payı 2,4 faiz idi. Göründüyü kimi, karantin tədbirləri səbəbindən turizm və ictimai iaşənin iqtisadiyyatda payı 85 faiz bəndə yaxın azalıb. Doğrudur, ÜDM-in məbləğindəki ötən ilki artım bu sektorların payına təsirsiz ötüşməyib. Amma reallıq bundan ibarətdir ki, karantin qaydalarının ən çox təsir etdiyi sektorlar məhz turizm və ictimai iaşədir".

Deputat bildirib ki, yeni turizm mövsümü başlayır. O əlavə edib ki, 2019-cu ilə ölkəyə 3.2 milyon turist gəlmişdisə, 2021-ci ildə pandemiya səbəbindən bu rəqəm 791,8 minədək azalıb:

"Bu baxımdan, quru sərhədlərinin mərhələli açılışı, vaksin sertifikatı ilə bağlı tələblərin aradan qaldırılması ölkəyə gələn turistlərinin sayının kəskin artmasına səbəb ola bilər. Turizm neftdən sonra Azərbaycana ən çox valyuta gətirən sektordur. Pandemiyadan əvvəl illik turizm gəlirləri 2.7 milyard dollara yaxın idi. Bu sektor məşğulluğa da xüsusi töhvə verir. Bu baxımdan, əksər Qərb ölkələrində olduğu kimi Azərbaycanda da xüsusi karantin qaydalarının daha yumşaldılması turizm daxil olmaqla bir sıra sektorlar üçün əlavə imkanlar yaradacaq".

# Dövlət qulluğuna qəbul üçün müsahibə elan edilib

***Mərkəzi icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları daxil olmaqla inzibati dövlət qulluğu vəzifələrinin 4-7-ci təsnifatı üzrə A və B növünə aid olan ümumilikdə 51 dövlət orqanında 281 vakant inzibati vəzifənin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib.***

Dövlət İmtahan Mərkəzindən "Unikal"a verilən məlumata görə, müsabiqənin müsahibə mərhələsində aşağıdakı şəxslər iştirak hüququna malikdirlər: Dövlət qulluğunun müvafiq vəzifəsi üzrə test imtahanından keçdiyini təsdiq edən dövlət qulluğu sertifikatı qüvvədə olan şəxslər; Dövlət qulluğu vəzifəsinin tutulması üçün nəzərdə tutulan təhsil tələbi (istiqaməti) üzrə elmlər doktoru elmi dərəcəsi olan şəxslər.

Müsabiqənin müsahibə mərhələsində iştirak etmək istəyən namizədlər 21 aprel-20 may saat 18:00-dək Mərkəzin internet portalında "Dövlət qulluğu üzrə müraciət Forması"nı doldurmaqla qeydiyyatdan keçməlidirlər. Namizəd portala daxil etdiyi məlumatların və sənədlərin aktuallığını və tamlığını təsdiq etməlidir.

Müsahibədə iştirak üçün müraciət edən namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin və qanunvericiliklə müəyyən olunmuş vakant vəzifələrin tutulmasının ümumi şərtlərinin tələblərinə cavab verməlidir. Vakant vəzifə üzrə müəyyən edilmiş tələblərə cavab verməyən namizəd müsahibədə iştirak edə bilməz.

Müsabiqənin müsahibə mərhələsində iştirakı qeydə alınmayan namizədə bu barədə portal vasitəsilə elektron bildiriş göndərilir. Namizədin qeydə alınmamasına səbəb olan çatışmazlıqlar aradan qaldırıldıqdan sonra, namizəd müvafiq vəzifə üzrə müsahibədə iştirak etmək üçün qeydə alınır. Çatışmazlıqlar 3 (üç) iş günü müddətində aradan qaldırılmadıqda, namizəd müsahibədə iştirak etmək üçün qeydə alınmır.

Namizəd müəyyən edilmiş şərtlərə cavab vermədikdə, habelə onun tərəfindən təqdim edilmiş məlumat və sənədlərdə bilərəkdən yanlış məlumatlar verilməsi aşkar edildiyi halda, namizədin müsahibədə əldə etdiyi nəticələr etibarsız hesab edilir.

Namizədlər müsahibələrin keçirilmə vaxtı və yeri haqqında məlumatları sənəd qəbulu başa çatdıqdan sonra Mərkəzin www.dim.gov.az internet portalında və müvafiq dövlət orqanının saytında yerləşdiriləcək müsahibələrin keçirilməsi qrafikindən əldə edə bilərlər.

Müsahibənin keçirilməsində məqsəd namizədin bilik səviyyəsini, peşə hazırlığını, ümumi dünyagörüşünü və vakant vəzifə üçün zəruri olan keyfiyyətlərini yoxlamaqla onun vəzifəyə uyğunluğunu müəyyən etməkdir. Müsahibənin nəticəsi barədə məlumat Mərkəzin internet portalında və müvafiq dövlət orqanının saytında yerləşdirilir.

Müsahibə proqramları və qulluq funksiyalarına dair ətraflı məlumat almaq üçün Mərkəzin www.dim.gov.az internet portalına müraciət edilə bilər.

Qeyd edək ki, müsahibəyə çıxarılması üçün dövlət orqanları arasında ən çox vakant vəzifə Ekologiya və Təbii Sərvətlər Nazirliyi (24 vəzifə), Şəki Apellyasiya Məhkəməsi (17 vəzifə) və Dövlət Turizm Agentliyi (16 vəzifə) tərəfindən təqdim olunub.

Müsabiqənin müsahibə mərhələsinə çıxarılan vəzifələr arasında ən yüksək vəzifə inzibati vəzifələrin 4-cü təsnifatına uyğun olan Dövlət Turizm Agentliyində Maliyyə və texniki təchizat şöbəsində şöbə müdirinin müavini vəzifəsidir. Ümumilikdə, müsahibəyə çıxarılmış 281 vakant inzibati vəzifənin 4-ü AB, 6-sı AC, 80-i BA, 191-i isə BB vəzifə qrupuna aiddir.

# AZAL cərimələndi

***Azərbaycan Hava Yolları (AZAL) Qapalı Səhmdar Cəmiyyəti barəsində inzibati qaydada protokol tərtib edilib.***

"Unikal"ın məlumatına görə, AZAL barəsində İnzibati Xətalar Məcəlləsinin 485.2-ci (Mallar və nəqliyyat vasitələri gətirilərkən və ya aparılarkən müvafiq icra hakimiyyəti orqanına məlumatın verilməməsi və ya təhrif olunmuş məlumatın verilməsi, yaxud əvvəlcədən qısa idxal bəyannaməsinin verilməməsi) maddəsi ilə inzibati protokol tərtib edilib və baxılması üçün Nəsimi Rayon Məhkəməsinə göndərilib. İşə hakim Babək Pənahovun sədrliyi ilə baxılacaq.

Qeyd edək ki, sözügedən xətaya görə, vəzifəli şəxslər 1 000, hüquqi şəxslər isə 1 500 manat cərimə edilir.

***Murad İbrahimli***

# Bəzi "tikinti oliqarxları"nın yeni fırıldağı...

## Həftənin sualı: "bulanıq suda balıq tutmağa çalışan" inşaat şirkəti sahiblərinin özbaşınalığı nə vaxtadək davam edəcək?

***Azərbaycanın daşınmaz əmlak bazarında xoşagəlməz hallar davam edir. Bu günlərdə məlum oldu ki, Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş çoxsaylı müraciətlər əsasında araşdırma aparılıb. Aydınlaşıb ki, "Sahil-S İnşaat" mənzil-tikinti kooperativinin (MTK) sədri vəzifəsini tutan Taleh Allahverdiyev ilə "GG Company" MMC-nin direktoru Kərimov Pənah əlbir olublar.***

Onlar saxta sənədlərdən istifadə edərək, Bakının Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsində yerləşən çoxmərtəbəli binada artıq satılan mənzilləri yenidən satıblar. Həmin şəxslər barəsində Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq külli miqdarda ziyan vurmaqla törədildikdə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.



Düzdür, "MBA Group" konsaltinq şirkətinin baş direktoru, daşınmaz əmlak üzrə ekspert Nüsrət İbrahimov "ayna.az"a deyib ki, son vaxtlar daşınmaz əmlak bazarında belə hallara və fırıldaqçılıq faktlarına, xoşbəxtlikdən, son dərəcə nadir hallarda rast gəlinir. Onun sözlərinə görə, fırıldaqçılarla qarşılaşmamaq üçün peşəkarlarla işləmək və şəxsin alacağı əmlakın sənədləri ilə ətraflı tanış olmaq lazımdır. Lakin bir məqamı unutmaq olmaz ki, bəzən hətta bir qanunsuzluq belə, vətəndaşların daşınmaz əmlak bazarına inamını sarsıda, yaxud bu bazardakı mənfi tendensiyanı körükləyə bilir.

Bəli, öncəki illərlə müqayisədə son zamanlar mənzil fırıldağı halları azalıb. Belə hallar, Azərbaycan Rieltorlar Assosiasiyasının icraçı direktoru, daşınmaz əmlak və tikinti üzrə mütəxəssis Elnur Azadovun da mediaya açıqlamasında vurğuladığı kimi, bir mənzilin bir neçə şəxsə satılması faktlarının böyük əksəriyyəti 2010-2015-ci illərə təsadüf edirdi. Bu cür hallara qarşı aidiyyatı qurumların ciddi tədbirlər görməsi sayəsində qanunsuz, özbaşına əməllər əhəmiyyətli şəkildə səngiyib.

Ancaq yazının əvvəlində bəhs etdiyimiz faktdan belə aydın olur ki, bəzi tikinti "oliqarx" şirkətləri hələ də sözügedən əməllərdən tamamilə əl çəkməyiblər, üstəlik, özbaşınalığın yeni "növlərini" icad etməyə başlayıblar. Məsələn, tikinti şirkəti layihəni götürüb, bir neçə mənzil satır, sonra isə bütün layihəni başqa şirkətə satır. Yaxud şirkət yaşayış kompleksi tikir, insanlara mənzillər verir, mənzil sahibləri evlərinə köçür, lakin onlara çıxarış sənədi verilmir. Elə tikililər var ki, insanlar 10-15 ildir çıxarış olmadan yaşayırlar. Bu da daşınmaz əmlak bazarında ciddi narazılıqlara, narahatlıqlara gətirib çıxarır.

Onu da qeyd edək ki, "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"na əsasən, istifadəyə verilməmiş evlərdəki mənzillərə mülkiyyət hüququ verən sənədlərin vahid məlumat bazası yaradılmalıdır. Bu addım, sözügedən sahədə mövcud problemləri həll etməlidir.

Həll prosesinə isə həm də ondan başlamaq lazımdır ki, ölkədə tikinti şirkətləri arasında dolayısı ilə məmurlara məxsus olan yetərincə MMC, MTK var. Bu isə həmin şirkətləri və onların rəhbər şəxslərini məsuliyyətdən kənarda qoyur. Bəzi məmurlara yaxın tikinti şirkətləri dövlətə məxsus nəzarətedici qurumlardan güclü çıxır və təftişdən yayınmağı bacarırlar. Nəticədə ortaya çoxsaylı nöqsanlar, qanunsuzluqlar çıxır. Elə MMC-lər, MTK-lar var ki, özlərini "toxunulmaz" saydıqları, arxalarında nüfuzlu himayədar olmasından arxayınlaşdıqları üçün qanunlara "yuxarıdan aşağı" baxmaqdan çəkinmirlər.

O da unudulmamalıdır ki, ötən ilin payızında yerli medianın yazdığına görə, qeyri-rəsmi statistika təkcə paytaxt Bakıda 150-yə yaxın "yalançı" tikinti şirkətinin olduğunu göstərir. Həmin şirkətlər faktiki olaraq vətəndaşları aldatmaqla məşğuldur.

Daha bir mühüm məqam: ötən illərdə Prezident Administrasiyasına vətəndaşların çox sayda tikinti şirkəti tərəfindən çoxmərtəbəli yaşayış binalarının inşasında müvafiq norma və qaydalara, həmçinin müqavilə şərtlərinə riayət edilməməsindən, bəzi şirkətlərin mənzilləri 2 və daha artıq şəxsə satmasından, razılığa gəlinmədən, kompensasiyalar verilmədən söküntü işlərinə başlanılmasından, binaların təhlükə törədəcək dərəcədə yaxın məsafədə tikilməsindən şikayət etdiyi açıqlanmışdı.

"İnanırıq ki, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, eləcə də digər qurumlarda vətəndaşların müraciətlərinə, xüsusilə şikayətlərinə daha çox diqqət yetiriləcək və şikayətlərin sayı getdikcə azalacaq", - deyə Prezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun rəsmi mətbuatda dərc olunmuş məqaləsində vurğulanırdı.

Fikrimizcə, bu, önəmli xüsusdur, istər mərkəzi, istər yerli icra hakimiyyəti orqanları vətəndaşlara qarşı qanunsuzluğa yol verən tikinti şirkətləri ilə bağlı şikayətlərə həssas, operativ və obyektiv münasibəti daim ön plana çıxmalıdır.

Bütün bu və digər nüansları nəzərə almadan bəzi "tikinti oliqarxlarının" qanunsuzluqlarına biryolluq son qoymaq mümkünsüz görünür...

***Sənan Mirzə***

6.3.6. Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# 30 ildən sonra Şuşada mühüm beynəlxalq tədbir

## İlqar Vəlizadə: "Şuşada mühüm qərarlar qəbul olunur ki, bu da həmin şəhərin regional xəritədə siyasi çəkisini artırır"



***Aprelin 22-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Dünya Azərbaycanlılarının V Qurultayı başlayır. Qurultay Qarabağın işğaldan azad edilməsindən sonra Azərbaycan diasporunun ilk böyük toplantısı olacaq. Qurultayın tarixi önəmindən biri də onun türk dünyasının mədəniyyət paytaxtı Şuşada keçirilməsidir. Tədbirdə 65 ölkədən 400-ə yaxın diaspor nümayəndəsinin iştirakı gözlənilir.***

Dünya Azərbaycanlılarının V Qurultayının məhz Şuşa şəhərində təşkil olunması da əbəs yerə deyil.

30 ildən sonra Şuşada bu Qurultayın təşkili çox böyük tarixi hadisədir.

Politoloq İlqar Vəlizadə deyib ki, Qarabağın incisi sayılan Şuşa təkcə Azərbaycanın, türk dünyasının mədəniyyət paytaxtı deyil, həm də ölkəmizin siyasi paytaxtına çevrilməkdədir: "Şuşada keçirilən qurultay çox önəmli hadisədir. Şuşa Azərbaycanın mədəniyyət rəmzidir. Dünyanın müxtəlif ölkələrindən Şuşaya azərbaycanlıların toplaşması bu şəhərin dünyada yaşayan azərbaycanlıların mərkəzinə çevrilməsi deməkdir. Artıq Şuşa real olaraq Azərbaycanındır. Hər bir xalqlar, dini konfensiya üzvüləri üçün müqəddəs məkanlar var. Bizim üçün də ən müqəddəs yer Şuşadır".

Bu qurultay Azərbaycanı kiçik görmək istəyənlərə də bir növ siyasi mesaj olacaq. Əsas məsələlərdən biri də mesajların məhz Şuşadan verilməsidir. Bəyanatların Şuşadan səslənməsinin böyük siyasi və mənəvi yükü var. Bu artıq Şuşanın siyasi baxımdan əhəmiyyətini bir daha vurğulayır. Şuşada mühüm qərarlar qəbul olunur ki, bu da həmin şəhərin regional xəritədə siyasi çəkisini artırır. Məhz buna görə də, Azərbaycan-Türkiyə münasibətlərini tənzimləyən Şuşa Bəyannaməsi Şuşa şəhərində imzalandı. Bu Şuşanın Azərbaycan-Türkiyə münasibətlərindəki rolunu və türk dünyasında olan çəkisini göstərir".

İ. Vəlizadə bildirir ki, bu qurultay həm ermənilərə həm də onların havadarlarına reallıqla barışmalı olduqları barədə mesaj verir.

Həmsöhbətimiz deyir ki, Xarıbülbül festivalı keçirilməklə, Vaqif Poeziya Evi təşkil olunmaqla Şuşa şəhəri özünün mədəniyyət paytaxtı olduğunu sübuta yetirib. Amma ilk dəfədir ki, Şuşa həm də siyasi mərkəz olmaqla bütün dünyaya özünü nümayiş etdirmiş olacaq. Bunun-lada dünya görəcək ki, Azərbaycan heç də buradakı 10 milyonluq əhalidən ibarət deyil. Altmış milyonluq Azərbaycan diasporu var ki, Şuşanın Azərbaycan xalqına məxsus olduğunu dünyaya sübut etsin.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva isə bildirib ki, Şuşada keçiriləcək Zəfər qurultayı da postmüharibə dövründə diaspor fəaliyyətinin təşkili, erməni vandalizminin dünyada ifşası, beynəlxalq təşkilatlar, müxtəlif ölkələrdəki yerli qurumlar, media və digər təsisatlarla aparılan işin yenidən dəyərləndirilməsi, vahid şəbəkə formasında yeni konsepsiyalara əsaslanan tədbir və layihələrin həyata keçirilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Qeyd edək ki, Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev də mətbuata müsahibəsində bildirib ki, Azərbaycanın, Türk Dünyasının mədəniyyət paytaxtında keçiriləcək Qurultayda bundan sonra diasporun fəaliyyətini müəyyənləşdirəcək mühüm qərarlar qəbul ediləcək.

Məlumat üçün bildirək ki, qurultayın rəsmi açılış mərasimindən sonra Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinə dair hesabat verilməsi, "Postmüharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr", "Qarabağın bərpası və yenidən qurulmasına Azərbaycan diasporunun töhfələri" mövzularında müzakirələrin təşkili planlaşdırılır. Onun sözlərinə görə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın işğaldan azad etdiyi Şuşa şəhərində keçiriləcək bu qurultay ölkəmizin xarici siyasəti ilə yanaşı, diaspor fəaliyyətində də yeni mərhələnin başlanğıcı hesab oluna bilər.

Qeyd edək ki, apreldən başlayaraq hər ay Milli Məclisin komitə iclaslarından biri Şuşa şəhərində keçiriləcək. Milli Məclisin komitə iclaslarının Şuşa şəhərində keçirilməsi Prezidentin sərəncamı ilə elan edilmiş "Şuşa ili"nə töhfə vermək niyyəti ilə bağlı olub.

Xatırladaq ki, bundan başqa, komitə ötən il diaspor nümayəndələrinin Şuşaya dörd səfərini təşkil etmişdi.

2021-ci ildə komitə xarici jurnalistlərin, ekspertlərin, fotoqrafların, politoloqların və tarixçilərin işğaldan azad olunmuş Azərbaycan ərazilərinə çoxsaylı səfərlərini təşkil edib. Məqsəd Azərbaycan həqiqətlərinin, Ermənistanın 30 il ərzində işğal altında saxladığı torpaqlarımızda törətdiyi dağıntıların dünyaya çatdırılması olub. Qarabağa səfər edən fotoqrafların çəkdiyi əsərlərdən ibarət sərgilər Avropanın mərkəzi şəhərlərində nümayiş olunmuşdur.

Onu da bildirək ki, Prezident İlham Əliyev 2022-ci ili "Şuşa ili" elan edib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Fərrux yüksəkliyində tapılmış meyit qalıqları azərbaycanlılara aiddir- Rəsmi

***Fərrux yüksəkliyində tapılmış meyit qalıqlarının ekspertizası onların azərbaycanlılara aid olduğunu sübut edir.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası bununla bağlı məlumat yayıb.

Məlumatda deyilir:

- Məlum olduğu kimi, cari ilin mart ayının sonunda Xocalı rayonu ərazisindəki Fərrux yüksəkliyində qazıntı zamanı bir neçə insana aid naməlum meyit qalıqları aşkar edilmişdir.

Mütəxəssislər tərəfindən aparılan ekspertizalar nəticəsində Fərrux yüksəkliyində tapılmış məzarların üzərində hər hansı qəbirüstü abidə və ya tanınma lövhəsinin olmadığı, həmçinin bu qalıqların antropoloji xüsusiyyətlərinə görə Azərbaycan türklərinin daxil olduğu avropoid irqinin Kaspi yarımtipinə aid olması müəyyənləşdirilmişdir.

Eyni zamanda, erməni tərəfinin iddiasının ziddinə olaraq meyitlər xristian ənənəsi ilə, xüsusən də erməni adətlərinə uyğun tabutda və geyimdə dəfn edilməmiş, müvafiq sıralama və istiqamət üzrə deyil, xaotik şəkildə basdırılmışdır. Bundan başqa, meyit qalıqlarının üzərində zorakılıq əlamətlərinin və küt alətlərlə endirilmiş zərbə izlərinin aşkar edilməsi, həmçinin məzarlıqdan çoxsaylı gilizlərin tapılması onların Birinci Qarabağ müharibəsində qətlə yetirilmiş Azərbaycan vətəndaşlarına aid olduğunu sübuta yetirir. Kütləvi məzarlığın yaşayış məntəqələrindən 10-15 km kənarda və yüksək dağlıq ərazidə yerləşməsi də həmin məkanın ənənəvi məzarlıq olmadığı qənaətinə gəlməyə əsas verir.

Ermənilər tərəfindən yayılmış videomaterialda adı elmi ictimaiyyətə məlum olmayan erməni "antropoloq" Levon Yepiskoposyanın Xocalı şəhərinin adını çəkməsi təsadüf sayılmamalıdır. "Antropoloq" Levon Yepiskoposyanın müsahibəsində bu qalıqların guya 1992-1993-cü illərdə Xocalı şəhərində ölmüş ermənilərə aid olduğunu, onların şəhərdən 12 km kənarda dəfn edildiyini və həmin ərazinin ermənilər üçün müqəddəs yer olduğunu bildirməsinin heç bir əsası yoxdur. Məzarlığın aşkarlandığı ərazidə erməni dini abidəsi və məzarlığının olmaması qeyd olunanları bir daha sübut edir.

Fərrux yüksəkliyində kütləvi məzarlığın tapılmasından ciddi narahatlıq keçirən erməni tərəfinin hazırda başlatdığı təbliğat Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın beynəlxalq humanitar hüquq normalarını pozması və insanlıq əleyhinə cinayətləri törətməsi ilə bağlı faktları gizlətməyə və beynəlxalq ictimaiyyəti çaşdırmağa xidmət edir.

İşğaldan azad edilmiş ərazilərdən tapılaraq götürülmüş meyit qalıqlarının eyniləşdirilməsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir. Bu barədə ictimaiyyətə əlavə məlumat veriləcəkdir.

# "30 ildən sonra Azərbaycan tarixi ədaləti bərpa etdi" - Rektor



***"30 ildən sonra Azərbaycan dövləti tarixi ədaləti bərpa edərək ona məxsus olan əraziləri geri qaytardı və bütün dünya Qarabağda, Şərqi Zəngəzurda memarlıq irsinin, ümumiyyətlə, bütün şəhərsalma infrastrukturunun qəsdən məhv edilməsi faktını öz gözləri ilə gördü".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova deyib.

Rektor bildirib ki, bu ərazilərə sahib olduqları 30 ilə yaxın müddətdə ermənilər bütün tarixi-memarlıq abidələrini dağıdıblar, şəhərləri yer üzündən siliblər.

"Beynəlxalq konvensiyaları, xüsusilə "Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" 1954-cü il Haaqa Konvensiyasını və ona dair Protokolları, habelə YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" Konvensiyasını pozaraq, işğalçılar memarlıq abidələrini dağıdıb və ya "erməniləşdirmək" məqsədi ilə saxtalaşdırıb, tətbiqi sənət abidələrini ölkədən kənara çıxarıb, sonradan özlərininki kimi təqdim ediblər".

İşğaldan azad olunmuş torpaqlarımızda başlayan genişmiqyaslı quruculuq və abadlıq işlərindən danışan rektor qeyd edib ki, yenidənqurma işləri ilə yanaşı, həmin ərazilərdə ötən əsrlərdən yadigar qalan, tariximizi yaşadan və təəssüf ki, 30 illik işğal dövründə düşmənlərimiz tərəfindən məhv edilən, saxtalaşdırılan memarlıq abidələrimizin bərpası, memarlıq və şəhərsalma irsinin mühafizəsi bu gün qarşıda duran ən mühüm vəzifələrdəndir.

"Bu konfransın keçirilməsində məqsəd Qarabağda və Şərqi Zəngəzurda memarlıq irsinin qorunub saxlanması üzrə əsas vəzifələri müəyyən etmək, memarlıq abidələrinin bərpası üçün tövsiyələr hazırlamaq, memarlıq və şəhərsalma irsinin mühafizəsi sisteminin təkmilləşdirilməsinə dair təklifləri hazırlamaqdan ibarətdir".

***Anar Kəlbiyev***

# Qarabağda minalar ən çox harada yerləşdirilib? - AÇIQLAMA

***"İşğalçı dövlət tərəfindən Qarabağda və Şərqi Zəngəzurda minaları və partlayıcı qurğular ən çox memarlıq və arxeoloji abidələrin, həmçinin məscidlərin və Azərbaycana məxsus kilsələrin yaxınlığında yerləşdirilib. Müvafiq dövlət qurumunun dəstəyi nəticəsində həmin ərazilərdən minalar təmizlənir və Azərbaycanın milli mədəni irsi olan həmin abidələrə baxış keçirilir".***

"Unikal" xəbər verir ki, bunu Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli bildirib.

O qeyd edib ki, işğaldan azad edilmiş abidələrin monitorinqi keçirilir və abidələr katoloqlaşdırılır: "İşğaldan azad edilmiş ərazilərdə yerli və dünya əhəmiyyətli tarixi abidələr var. Həmin abidələrin tarixi dəyişdirilməyə, erməniləşdirilməyə çalışılıb".

# Müəllimlərin yerdəyişməsi üzrə sənəd qəbulu başlayır

***Müəllimlərin işə qəbulu ilə bağlı ənənəvi yerdəyişmə üzrə sənəd qəbulunun başlama vaxtı açıqlanıb.***

"Unikal" xəbər verir ki, bununla bağlı Təhsil İnstitutunun İnsan Resursları Mərkəzinin direktoru Nurlan İsmayılbəyli "Təhsil masası"nda məlumat verib.

O qeyd edib ki, 25 aprel saat 11:00-da ənənəvi yerdəyişmə üzrə sənəd qəbulu başlayır: "4 may saat 11:00-da sistem bağlanacaq. Müəllimlər həmin müddət ərzində sənədlərini sistemə yerləşdirə bilərlər".

# MİQ imtahanları yeni qaydada keçiriləcək

***Müəllimlərin işə qəbulu imtahanları (MİQ) bu il yeni qayda ilə keçiriləcək.***

"Unikal" xəbər verir ki, bununla bağlı Təhsil İnstitutunun İnsan Resursları Mərkəzinin direktoru Nurlan İsmayılbəyli "Təhsil masası"nda məlumat verib.

Onun sözlərinə görə, keçid balı ilə bağlı hansısa proqnoz vermək çətindir: "Sənəd qəbulunun daha erkən başlaması nəzərdə tutulsa da, imtahanlar yay aylarında keçiriləcək".

# "Yeni filmləri nazirə görə efirə vermirdilər" - Rasim Balayev



***Ötən gün Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsin yaradılması haqqında Fərman imzalayıb. Fərmana əsasən, Mədəniyyət Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxs yaradılıb.***

Müəyyən edilib ki, Agentlik Azərbaycanda kinematoqrafiyanın inkişafının, o cümlədən yerli və müştərək kino istehsalının dəstəklənməsi, kino mədəniyyətinin təbliğinin təşkili, kinematoqrafiya müəssisələrinin və kino sənayesi iştirakçılarının fəaliyyətinin, eləcə də kinematoqrafiya sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, Azərbaycan kinematoqrafiyasının dünya kinematoqrafiyasına inteqrasiyası sahələrində fəaliyyət göstərən, Nazirliyin tabeliyindəki kinematoqrafiya müəssisələrini idarə edən və onların fəaliyyətinə nəzarəti həyata keçirən publik hüquqi şəxsdir.

Yeni yaradılan Kino Agentliyindən gözləntilər nədir? İllərdir inkişaf edə bilməyən kino sahəsini yenidən canlandırmaq mümkün olacaqmı?

Azərbaycanın Xalq artisti, kino sənətinin görkəmli nümayəndəsi Rasim Balayev bununla bağlı fikirlərini Modern.az-la bölüşüb.

Aktyor hesab edir ki, Kino Agentliyinin yaradılmasını kino sahəsinin inkişafı baxımından müsbət hal kimi qiymətləndirmək olar. Xalq artisti əvvəllər də belə oxşar qurumun olduğunu xatırladıb:

"Kino sahəsi üzrə əvvəllər komitə fəaliyyət göstərirdi. Daha sonra nazirlikdə şöbə yaradıldı və bu formada işə davam etdilər. Məncə, kinoya nəzarət edən ayrıca qurum olmalıdır. Cənab Prezidentə təşəkkür edirəm ki, belə bir addım atdı. Gözləntilərim müsbətdir".

R.Balayev vurğulayıb ki, Kino Agentliyində kino sahəsi ilə məşğul olan təcrübəli insanlar çalışmalıdır.

"Nazirlikdə kino sahəsinə nəzarət edən şöbə olanda, işlər çox çətin idi. Kino, film çəkilirdi, əgər nazir bəyənmirdisə, efirə verilmirdi. Prezident lazımi addım atdı, bundan sonrakı işlər sənət adamlarının qabiliyyətinə qalıb.

Agentliyin ayrıca büdcəsi olacaq və nəticədə daha çox məsuliyyətləri yaranacaq. Soruşacaqlar ki, sənə bu qədər pul ayırmışıq, gördüyün işlər hanı? Agentlik də çalışacaq ki, daha məsuliyyətli olsun", - deyən Xalq artisti yaxın illərdə kino sahəsində müsbətə doğru dəyişikliklərin olacağına inandığını söyləyib.

Bundan əlavə, R.Balayev gənc aktyorlara dəstək göstərilməsinin vacibliyini önə çəkib. Onun sözlərinə görə, kino sahəsinin inkişafı üçün gənclərə dəstək vermək, onlara imkanlar yaratmaq vacibdir. Eyni zamanda peşəkar sənət adamlarını da unutmaq olmaz.

# İşçi qrupu Şuşada iclas keçirdi

***Şuşa şəhərinin və Şuşa rayonunun Daşaltı kəndinin içməli su təchizatı sisteminin yaradılması ilə bağlı texniki-iqtisadi əsaslandırma və ilkin layihə sənədlərinin hazırlanması məqsədilə yaradılmış işçi qrupun növbəti iclası keçirilib.***



"Unikal" xəbər verir ki, Şuşa şəhərində baş tutan iclasda "Azərsu" ASC-nin və işçi qrupuna daxil olan digər dövlət təşkilatlarının əməkdaşları və mütəxəssislər iştirak ediblər.

İclasda Şuşa şəhərinin içməli su təchizatının bərpası məqsədilə görülmüş təxirəsalınmaz işlər və perspektiv layihələr barədə məlumat verilib, iqlim dəyişikliklərininin su ehtiyatlarına təsiri ilə bağlı tədqiqatlar edilib.

Bildirilib ki, Şuşa şəhəri işğaldan azad olunduqdan sonra şəhəri su ilə təmin edən Kiçik Kirs və Zarıslı mənbələrinin fəaliyyəti qısa müddət ərzində bərpa edilib, magistral kəmərlərdə və su anbarlarında təmir-bərpa işləri həyata keçirilib. Şəhər ərazisində davam edən abadlıq-quruculuq və tikinti-quraşdırma işləri, yeni tikiləcək yaşayış və qeyri-yaşayış obyektləri içməli suya tələbatı xeyli artıracaq. Mövcud mənbələrin məhsuldarlığı yay mövsümündə tələbatı tam ödəməyəcək. Bütün bunlar nəzərə alınaraq alternativ mənbə kimi Zarıslı çayının su ehtiyatlarından istifadə olunması nəzərdə tutulur. Şuşa şəhərinin perspektiv inkişafı nəzərə alınmaqla dayanıqlı içməli su təminatı məqsədilə çayın məcrasında yeni su anbarının layihələndirilməsi işləri davam etdirilir. Zarıslı çayının məcrasında yaradılacaq anbarda toplanan suyun şəhərə nəqli məqsədilə nasos stansiyasının və 2,6 km uzunluğunda təzyiqli su kəmərinin inşası planlaşdırılır.

İclasda Şuşa şəhərinin içməli su və tullantı su sistemlərinin yenidən qurulması ilə bağlı perspektiv layihələr, bu sahədə innovativ texnologiyaların tətbiqi və ətraf mühitə təsirin qiymətləndirilməsi məsələləri də müzakirə edilib.

İşçi qrupunun üzvləri yaradılacaq yeni su anbarının tikiləcəyi yerə baxış keçirib, ərazinin coğrafi mövqeyi və relyefi ilə tanış olublar.

# ASC Ağstafada və Masallıda meliorativ tədbirlər həyata keçirib

***Ağstafa rayonunda meliorativ tədbirlər davam edir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Ağstafa Suvarma Sistemləri İdarəsi tərəfindən suvarma mövsümünə hazırlıq məqsədilə hazırkı vaxta kimi 25 ədəd subartezian quyusunda cari təmir işləri aparılıb, onların nasaz mühərriklərinin sarğısı yenisi ilə əvəz olunub, nasos hissəsində aşınmaya məruz qalmış hissələri yenisi ilə əvəzlənib. İdarə bu il su istifadəçilərinin əkin sahələrini suvarma suyu ilə daha yaxşı təmin edilməsi məqsədilə böyük tədbirlər planının da həyata keçirilməsini nəzərdə tutub. Uzun müddət istismar olunmuş Qıraq Kəsəmən nasos stansiyasında əsaslı təmir işləri aparılmaqla müasir tələblərə cavab verən nasos stansiyanın quraşdırılması, 2021-ci ildə beton üzlük qoyulmaqla təmir edilən Poylu arxında işlərin davam etdirməklə əlavə 1,2 kilometr beton üzlük qoyulması və 2 ədəd fəaliyyəti tam dayanmış subartezian quyusunun yenidən əsaslı təmir edilərək istismara verilməsi də planlaşdırılıb.***

Ağstafa Suvarma Sistemləri İdarəsi Ağstafa rayonunu 21050 hektar suvarılan əkin sahəsinin suvarma suyu ilə təminatına xidmət edir. Bu 2021-ci illə müqayisədə əlavə torpaq sahələrinin əkinə cəlb edilməsi sayəsində 1543 hektar çoxdur. Suvarmada rayon üzrə 4 mənbədən həsinin 4203 hektarının su ilə təminatı isə rayon ərazisində fəaliyyət göstərən 266 ədəd subartezian quyuları vasitəsilə həyata keçirilir. Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən 2022-ci ildə 6 ədəd subartezian quyusunun qazılması işlərinə başlanıb və nın yaxşılaşdırılması istiqamətində işlər davam etdirilir.

Masallı rayonunda Viləşçay və Babaser su anbarı, 37 kiçik sututarı və subartezian quyuları vasitəsilə suvarma suyunun verilməsi təmin olunur. Leysan xarakterli yağışlar nəticəsində rayon ərazisindəki bu su mənbələrində kifayət qədər su yığımına nail olunub. Hazırda Masallıda 9890 hektar əkin suvarma sahəsi 10110 hektara qədər artırılıb. Viləşçay su anbarı istismarı idarəsi tərəfindən rayonda suvarma mövsümünə hazırlıq işləri aparılır və tamamlanmaq üzrədir. Hidrotexniki qurğularda təmir işləri gedir. Sağ sahil magistral beton kanalı təmir edilir, sol sahil torpaq kanalında isə qazıntı, lildən təmizlənmə işləri aparılır.

Masallı rayonunda 63 ədəd subartezian quyusu mövcuddur. Nəzərdə tutulan və bu il qazılan 4



istifadə edilir. Bunlar Ağstafaçay su anbarı, Həsənsu çayı, Ağ Göl su anbarı, subartezian quyuları və yerli əhəmiyyətli qaynama sulardır. Eyni zamanda suvarmanın yaxışlaşdırılması məqsədilə 3 ədəd nasos stansiyanın gücündən istifadə edilir. Suvarma suyunu su istehlakçılarına ümümilikdə 825 km üzunliğunda magistral, təsərrüfatlar arası və təsərrüfatdaxili kanallar vasitəsilə çatdırılır. Suvarma mövsümünə hazırlıq məqsədilə suvarma kanallarında təmizlik işlərinə başlanılıb. Maşın və mexanizmlərlə hazırkı vaxta kimi 65 km məsafədə kanallar və arxalar lildən təmizlənib, 120 kub metr əl ilə lildən təmizləmə və 35000 kvadrat metr kol kosdan təmizləmə işləri aparılıb. Hidrotexniki qurqulara baxış keçirilib, təmirə ehtiyac olan hissələrində cari təmir işləri aparılıb.

Nasos stansiyaları mövsümə hazır vəziyyətə gətirilib. "Həsənsu" nasos stansiyasının elektrik transformatorunda yaranmış nasazlıq aradan qaldırılıb. Suvarılan əkin sa- Aşağı Kəsəmən kəndində 1 ədəd subartezian quyusunda yaxın zamanlarda iş yekunlaşacaqdır.

Qeyd edək ki, sərhəd kəndi olan Tatlı kəndində əkin sahələrinin və əhalinin suya olan tələbatını ödəmək üçün Həsənsu çayının məcrasında yer altı suların toplanaraq nasos vasitəsilə çatdırılması üçün yeni nasos stansiyanın tikintisi də nəzərdə tutulub. Məlumat üçün bildirək ki, rayon ərazisində suvarılan sahələrin 8326 hektarı dənli bitkilər, 5857 hektarı yem bitkiləri, 1301 hektarı bostan- tərəvəz, 1502 hektar çoxillik əkmələr, 2521 hektarı isə həyətyanı sahələrdir.

Masallıda əkin sahələrinin suvarma suyu ilə təminatı yaxşılaşdırılır. Dilqəm Şərifov bildirib ki, kənd təsərrüfatı bitkilərinin inkişafı suvarmadan asılıdır. Düzgün suvarılma məhsuldarlığı dəfələrlə artırdığından Azərbaycanda bu sahə xüsusilə diqqətdədir. Əsas əkinçilik sahələri çəltik, tərəvəz və bostançılıq olan Masallıda suvarma imkanları- ədəd quyu artıq tamamlanmaq üzrədir. Bu quyular əsasən sitrusçuluq, çayçılıq üçün nəzərdə tutulub və həmin ərazilərdə qazılır.

Mart ayında intensiv yağıntılar nəticəsində Viləşçay su anbarında hazırda 42.6 milyon kubmetr su mövcuddur. Suyun balansını qorumaq üçün, anbarda su yığımı daşqına səbəb olmasın deyə saniyədə 115 kub metr su Viləşçaya buraxılır.

Qeyd edək ki, Viləşçay su anbarının tutumu 46 milyon kub metrə malikdir. Su anbarının faydalı həcminin artırılması məqsədilə 2-ci növbəsinin tikilməsi nəzərdə tutulub. Cənab Prezidentin müvafiq sərəncamına əsasən layihə işləri aparılır. 2-ci növbə nəzərdə tutulub ki, 128 milyon kubmetr sututma qabiliyyətinə malik olsun. Bununla da Masallı rayonunda ümumi 17000 hektara yaxın əkin sahəsi suvarma suyu ilə təmin oluna biləcək.

***Hüseyn İsgəndərov***

# Ürəklərdə yaşayan qəhrəman ömrü



***İkinci Qarabağ müharibəsində torpağı qani ilə Vətən edən qəhrəman oğlanlardan bir də Elçin Sarvan oğlu Əliyevdir.***

Yardımlı rayonunun Kürəkçi kəndində dünyaya göz açmış Elçinin Vətən sevgisi, doğma diyara sonsuz məhəbbəti canından, qanından gəlirdi. Odur ki, həyatı dərk edən gündən yağı düşmənə əsir düşən yurdunun azadlığı onun ən böyük arzusu olur. Və 2020-ci ildə 25 yaşında Vətən, millət yolunda canını qurban verməklə bu arzusuna çatır. Onun tərkibində döyüşdüyü Azərbaycan ordusu qəhrəmanlıq salnaməsini yazaraq xalqımıza şanlı qələbə sevincini bəxş etdi. Elşən də bu qələbənin qazanmasında yaşına sığmayan rəşadət və şücaət göstərərək odlar yurdu, müdriklər beşiyi Azərbaycana bir şərəf, bir şan oldu. Zaman-zaman gələn nəsillər də onun şərəfli, parlaq ömür yoluna Vətənə, torpağa sədaqət rəmzi kimi baxarlar.

Sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlanan günü Elçin Əliyev ön cəbhəyə yollanır. Torpaq qeyrəti, Vətən namusu haqq savaşımızda Elçini döyüşün ən qaynar yerində sınağa çəkir. Olduğu müharibə meydanında erməni dığalarının çoxlu sayda canlı qüvvəsini, texnikasını məhv etməklə ondan üreyincə qisas almağı bacarır. Qarabağın hər qarışı uğrunda canından keçməyə hazır olan qəhrəman əsgər qanlı-qadalı vuruşlardan qalib çıxmaqla döyüş yoldaşlarını da qələbəyə doğru aparır.

Elçin Əliyev Füzulidə gedən ağır, qeyri-bərabər döyüşdə qorxmadan, çəkinmədən polad sinəsini Vətənə tuşlanan güllələrə sipər edir. Bununla da Azərbaycanın daha bir cəsur, igid oğlu ölməzliyə qovuşur. Bu müqəddəs ölümlə milyonların qəlbinə köç edən Elçin dövlət tərəfindən isə "Vətən uğrunda" medala layiq görülür.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Azərbaycan radiosu ilə bağlı yeni kitab

***Bakı Dövlət universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru, radio problemləri üzrə tanınmış mütəxəssis Sevinc Məmmədovanın "Qovorit Baku" adlı monoqrafiyası işıq üzü görüb.***

"Sabah" nəşriyyatında nəşr olunmuş kitabda Bakı radiosunun yayıma başladığı ilk dövrün tarixi-xronoloji təsviri, mətbuatın və ictimaiyyət nümayəndələrinin radionun fəaliyyəti haqqında fikirləri, ilk verilişlərin təhlili verilib. Müəllif tarixi sənədlərə istinad edərək ötən əsrin 20-30-cu illərində beşiyi başında Ü.Hacıbəyov, M.S.Ordubadi, M.Maqomayev kimi qüdrətli sənətkarların dayandığı Azərbaycan radiosunun ölkənin ictimai-siyasi və mədəni həyatına təsiri barədə ətraflı söhbət açıb. Kitabda ötən illərin radio yaradıcılığına dair zəngin nümunələr verilib.

Kitabın elmi redaktoru, professor Qulu Məhərrəmli maraqlı tədqiqat işinə yazdığı girişdə qeyd etmişdir ki, belə araşdırmalar bir daha təsdiq edir ki, radio təkcə dinləyicilərin qulaq yoldaşı deyil, həm də zamanın və təmsil etdiyi cəmiyyətin səs yaddaşıdır, o bəzən milli ruhun ifadəçisi kimi də çıxış edir. Bu səbəblərdən radionun fəaliyyəti həmişə ciddi maraq doğurur. Tədqiqatçı-alim S.Məmmədovanın Azərbaycan radiosunun fəaliyyətinin ilk dövrünün dolğun mənzərəsini yaradan araşdırması məhz bu maraqdan qaynaqlanır.

Radio haqqında kütləvi tirajla çap olunmuş kitabın elmi məsləhətçiləri görkəmli radio tədqiqatçısı, professor Yalçın Əlizadə və BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Allahverdi Məmmədlidir. Kitab araşdırmaçılar və radio tarixini öyrənmək istəyənlər üçün qiymətli vəsaitdir.

## "Paşinyan nəyə imza atsa, Azərbaycanın xeyrinə olacaq" - Erməni siyasətçi

***"Bu gün dövlət başçısı ( Nikol Paşinyan - red. ) heç bir sənədə imza atmamalıdır. Nəyə imza atsa, Azərbaycanın xeyrinə olacaq".***

"Unikal" xəbər verir ki, bunu erməni siyasətçi Davit Davtyan deyib.

Siyasətçi, həmçinin Ermənistan rəhbərinin Rusiyaya səfərini də şərh edib:

Gözləntilər var, amma bu gün uduzan tərəfik, ölkənin baş nazirinin istənilən görüşü bizə yaxşı heç nə verməyəcək, çünki biz bu ruh halındayıq. Uduzmuş mövqedən çıxmalıyıq", - Davtyan bildirib.

***Ağarza Elçinoğlu***

## "NATO Mariupoldakı təxliyyə əməliyyatına cəlb oluna bilər" - Dövlət katibinin müavini

***NATO Mariupoldakı təxliyyə əməliyyatına cəlb oluna bilər.***

"Unikal" xəbər verir ki, ABŞ dövlət katibinin müavini Viktoriya Nuland çərşənbə günü CNN-ə bildirib ki, NATO ölkələri Mariupoldan insanların evakuasiyasına cəlb oluna bilər.

Onun sözlərinə görə, Rusiyanın mülki əhalinin və yaralı hərbçilərin çıxarılmasına icazə verməsilə bağlı müəyyən ümidlər var. Bu baş verərsə, NATO müttəfiqləri də işə cəlb olunacaq.

Eyni zamanda, Nuland ABŞ-ın belə bir əməliyyatda iştirak etməyə hazır olub-olmadığını dəqiqləşdirməyib.

## "Rusiya və Ukrayna sülh danışıqları məhv olur" - Conson

***Rusiya və Ukrayna arasında sülh danışıqları mənasızdır və məhvə məhkumdur.***

"Unikal" xəbər verir ki, bunu Britaniyanın Baş naziri Boris Conson deyib.

Putini etibarsız "timsah" adlandıran Britaniya lideri qeyd edib ki, Ukrayna prezidenti Volodimir Zelenski işğalçıları bütün torpaqlarından təmizləməyincə dayanmayacaq.

"Mən sadəcə Putini necə etibarlı həmsöhbət kimi qəbul etmək olar, anlamıram. Moskva hətta Kiyevə növbəti hücuma keçə bilər", - Conson bildirib.

***Ağarza Elçinoğlu***

## "Avropa təhlükədədir" - Cozep Borrel

***"Bu gün heç kim şübhə etmir ki, Avropa təhlükədədir".***

"Unikal" xəbər verir ki, bunu Aİ-nin Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrel Madriddə keçirdiyi mətbuat konfransında deyib.

Diplomat qeyd edib ki, Ukraynadakı vəziyyət İkinci dünya müharibəsindən sonra Avropanın üzləşdiyi ən ağır böhrandır. O, ölkələrin müdafiə xərclərinin koordinasiyalı şəkildə artırılmasına çağırıb. Bununla belə, diplomat bildirib ki, yaxcın gələcəkdə ümumavropa ordusunun yaradılması nəzərdə tutulmur. Lakin Ukraynanın özünü müdafiə etməsi üçün onu dəstəkləmək vacibdir.

## Ukraynada həlak olan uşaqların sayı açıqlandı

***Rusiyanın Ukraynaya hücumu nəticəsində ölən uşaqların yeni sayı açıqlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Baş Prokurorluğu məlumat yayıb.

Bildirilir ki, Rusiyanın Ukraynada apardığı genişmiqyaslı müharibə nəticəsində 208 uşaq ölüb, 376-si isə yaralanıb.

***Gülayə Mecid***

## Finlandiya Ukraynaya əlavə hərbi yardım göndərəcək

***Finlandiya Prezidenti Sauli Niinistö hökumətin Ukraynaya əlavə hərbi yardım göndərmək qərarını dəstəkləyib.***

Bu barədə müvafiq məlumat Finlandiya Müdafiə Nazirliyinin saytında yerləşdirilib.

Xəbərdə bildirilir ki, hökumətin təklifi ilə Finlandiya Prezidenti Ukraynaya əlavə hərbi texnika partiyası göndərmək qərarını artıq verib.

# Rusiya Mariupola nəzarəti ələ keçirdi

***Rusiya Ukraynanın Mariupol şəhərinə nəzarəti tam ələ keçirib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Rusiyanın müdafiə naziri Sergey Şoyqu Putinə məruzəsində bildirib.




Onun sözlərinə görə, Mariupolun mühasirəsi zamanı AFU qruplaşmasının, əcnəbi muzdluların sayı 8100 nəfərə yaxın olub.

Şoyqu həmçinin Azovstal ərazisində iki mindən çox yaraqlının blokadaya alındığını bildirib. Rusiya Federasiyasının Silahlı Qüvvələri və Donbass respublikalarının Mariupoldakı bölmələri əhalinin müdafiəsi üçün bütün tədbirləri gördüyünü ifadə edib.

Müdafiə nazirinin sözlərinə görə, silahlıların müqavimətinə baxmayaraq, Mariupolda 142 mindən çox vətəndaş təxliyə edilib, limanda olan bütün girovlar azad edilib.

Şoyqu bildirib ki, yaraqlıların bloklandığı Azovstalda işləri başa çatdırmaq üçün Rusiya Silahlı Qüvvələrinə üç-dörd gün lazımdır.

Onun sözlərinə görə, indi bütün Mariupol Rusiya Federasiyası Silahlı Qüvvələrinin və LPR, DXR-in nəzarəti altındadır, yaraqlılar "Azovstal" zavodunun ərazisində təhlükəsiz şəkildə bloklanıb.

***Gülayə Mecid***

# "ATƏT-in Minsk Qrupu turizm agentliyidir" - Latviyalı ekspert



***"İqor Xovayevin yardımı ilə Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanması məsələsində heç bir perspektiv görmürəm. O, İrəvanla Bakı arasında münasibətləri normallaşdıracaq şəxs deyil". Bu sözləri Rusiya xarici işlər nazirinin İrəvanla Bakı arasında münasibətlərin normallaşmasına yardım məsələləri üzrə xüsusi nümayəndəsinin təyin olunmasını AzVision.az-a şərh edərkən Latviya Silahlı Qüvvələrinin istefada olan yüksək rütbəli zabiti, hərbi ekspert Eynars Qraudinş deyib.***

- İqor Xovayevin Bakı ilə İrəvan arasında barışıq baxımından uğurlu fiqur olduğunu düşünmürəm,- Qraudinş vurğulayıb.- Birincisi, bu diplomatın münaqişə tərəfləri arasında danışıqlar aparmaq təcrübəsi yoxdur. Onun bu məsələ üzrə fəaliyyəti ilə bağlı heç bir məlumat əldə edə bilmədim. Tərcümeyihalına nəzər salsanız, o, Rusiyanın Vyetnamdakı səfirliyində məsləhətçi vəzifəsində çalışıb. 2015-ci il martın 2-dən 2020-ci il sentyabrın 21-dək Rusiya Federasiyasının Filippin Respublikasında, eyni zamanda Palau Respublikasında və Mikroneziya Federativ Dövlətlərində fövqəladə və səlahiyyətli səfir olub. Maraqlıdır, Rusiya Federasiyası bu diplomatı Rusiya xarici işlər nazirinin İrəvanla Bakı arasında münasibətlərin normallaşmasına yardım məsələləri üzrə xüsusi nümayəndəsi vəzifəsinə təyin edərkən hansı meyarları rəhbər tutub?

- Brüssel də Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanması üçün səylər göstərir. Brüsselin vasitəçiliyi ilə Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanması perspektivlərini necə qiymətləndirirsiniz?

- Avropa Şurası və Aİ iki münaqişə tərəfini sülhə gətirməyə qadir olan strukturlar deyil. Biz Brüsselin Rusiya-Ukrayna müharibəsi ilə bağlı özünü necə apardığını görürük. Ukrayna hadisələri ilə bağlı Avropa ölkələri arasında vahid mövqe, vahid hərbi və xarici siyasət yoxdur. Brüssel Rusiya-Ukrayna müharibəsini dayandırmaq üçün heç nə etməyib. O halda Ermənistan-Azərbaycan münaqişəsi üçün nə edə bilər? Prezident Makron prezident Putinə dəfələrlə zəng vurub, hə, nə olsun?! Nəsə dəyişib? Əlbəttə, yox! Ümumiyyətlə Brüsselin Ukraynaya münasibətdə davranışından çox məyus oldum. Son on il ərzində Avropada heç olmasa bir hərbi və ya etnik münaqişənin həllinə kömək etməsini xatırlamıram. Tarixdə belə nümunələr yoxdur.

- Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Qarabağ üzrə Minsk qrupunun mandatının de-fakto etibarsız olduğunu bildirib. Siz bu barədə nə düşünürsünüz?

- Burada vəziyyət son dərəcə acınacaqlıdır, çünki mən ATƏT, ATƏT-in Minsk qrupunun mandatı, Minsk danışıqları haqqında eşidəndə bu Avropa strukturunu istər-istəməz Ukrayna ərazisində baş verən geosiyasi faciə ilə əlaqələndirməli oluram. ATƏT uzun müddət Ukraynada işləyib, sülh yaradıb. Nəticə bu gün göz qabağındadır. ATƏT-in Minsk Qrupu münaqişə zonalarını, münaqişə edən ölkələrin paytaxtlarını gəzən bir sıra məmurlar üçün Avropanın turizm və səyahət agentliyidir. Maaşlarını alıb, vaxtaşırı bəzi hesabatlar yazırlar. Bu özünəməxsus cəfəng bir fəaliyyətdir. Çünki onilliklər keçsə də, münaqişə davam edir, insanlar ölür.

Mən ATƏT-in etnik və ya ərazi münaqişələrinin həllində iştirakına son dərəcə mənfi baxıram. Ola bilsin, Ermənistan-Azərbaycan münaqişəsinin həllində bəzi ölkələr vasitəçi ola bilər. Məsələn, Çin və Türkiyə kimi. Bu ölkələr hazırda dünyada geosiyasi çəki qazanırlar. Rusiyaya gəlincə, bu gün o, son dərəcə çətin beynəlxalq təcrid vəziyyətindədir, bunu etiraf etmək lazımdır. Lakin bu o demək deyil ki, Rusiya Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanması prosesində real olaraq iştirak edə bilməz.

***Nadir Quliyev***

# Rəşad Sadıqov: "Məşqçi işini sırf limit üzərindən qurmamalıdır"




***"Rəqib kuboku qazanmaqda çox istəkli görünür". Bunu "Zirə"nin baş məşqçisi Rəşad Sadıqov Azərbaycan kubokunun yarımfinal mərhələsində "Neftçi" ilə qolsuz bərabərə qaldıqları ilk oyun barədə danışarkən deyib.***

Gənc mütəxəssis qarşılaşmanın ardından komandasının çıxışını dəyərləndirib: "İlk dəqiqələrdən pressinq tətbiq etmək istədik. Taktiki cəhətdən zəngin oyuin oldu. Hər iki komanda səhv etmək istəmirdi. Kubokda bir səhv həlledici olur. Müəyyən təhlükəli hücumlarımız oldu. Son zərbələrdə dəqiqlik çatmırdı. Ümumi götürdükdə komandamdan razıyam. Taktiki cəhətdən həm istək, həm özünəinam baxımından özlərini yaxşı göstərdilər. Qarşıda cavab matçı var. Şanslar yarı-yarıyadır. "Neftçi"yə qarşı bu dəfə səfərdə oynayacağıq. Finala keçən komanda olmaq üçün əlimizdən gələni edəcəyik".

Baş məşqçi Hamidu Keytanı ikinci hissədə əvəzləməsinin səbəbini belə izah edib: "Keytanın oyunundan razı qaldım. Onun meydanda hər saniyə olması rəqib üçün təzyiqdir. Amma onun sağlamlığı mənim üçün daha vacibdir. Amma zədələnməsindən ehtiyat etdiyim üçün əvəzləmək qərarına gəldim".

Sadıqov Premyer Liqada əvəzetmə sayının 5-ə yüksəldilməsi təklifinə də münasibət bildirib: "Çox məsələ var ki, standartdan kənara çıxırıq. Kimsə 5 əvəzetmə edirsə, o demək deyil ki, biz də belə etməliyik. Mövsümün əvvəlində bu təklifi mən dəstəkləmişdim. Mənim üçün 3 və ya 5 əvəzləmənin fərqi yoxdur. Hətta orta yolu deyirəm ki, 3 olmasa da, 4 əvəzləmə olsun. Pandemiya dövründən artıq çıxırıq. 5 əvəzləmə niyə təklif edilir, bilmirəm. Avropada komandalar 50-60 oyun keçirirlər. Bizdə isə finala qədər getsən, 32 matç edir. Bu da çox deyil".

O, legioner limitinin ləğvi məsələsinin müzakirəyə çıxarılmasını isə bu cür dəyərləndirib: "Bu gün 7 yerli ilə oynayırdıq. Nadir hallarda meydana 6 əcnəbi çıxarmışam. Məşqçi işini sırf limit üzərindən qurmamalıdır. Bizdə Cəlal Hüseynov ötən il bir çox matçda sırf limitə görə yox, öz gücünə görə oynayırdı. Zərurətdən aşağı yaş qrupunda olan oyunçunu oynatmaq qeyri-peşəkarlıqdır. Bu gün "Neftçi"də də 2 gənc oyunçu var idi. Onlar limitə görə oynamırdılar ki. Limitdə müntəzəm çıxış edən o qədər oyunçu var idi ki, indi yoxdurlar. Elə klublar var ki, gənci məcburiyyətdən oynadır. Bu da avrokuboklarda ciddi ziyan vura bilər. Əsas odur ki, futbolçu olsun, seçim edə biləsən. Biz seçimdə çətinlik çəkirik. "Zirə"nin məşqçisi kimi danışmıram. Bəlkə də, mənə indiki limitin qalması sərf edir. Amma ümumi futboldan söhbət gedirsə, Rəşad kimi öz fikrimi bildirməliyəm".

Rəşad Sadıqov həm Premyer Liqada, həm də kubokda mübarizə aparmalarının asan olmadığını sözlərinə əlavə edib: "Hər iki cəbhədə mübarizə aparmaq çətindir. "Neftçi" ilə eyni şəraitdəyik. Çempionatda avrokuboka iddia edən komandaların kubokda da davam etməsi onların şanslarının eyni olduğunu göstərir. Bundan sonra çempionatda iki matç və "Neftçi" ilə kubokun cavab görüşü bizim üçün çox önəmlidir".

Çalışdırıcı "Zirə-2"nin I divizionda son pillədə qərarlaşmasının onlar üçün önəm kəsb etmədiyini deyib: "Zirə-2" ilə bağlı planlarımız var. Ötən il U-19-da oynayan uşaqlar var idi ki, bu gün bizimlə məşq edirlər. Biz "Zirə-2"də nəticəni düşünmürük. Orada məşqçi üçün nəticə vermək çətindir. Bizim üçün vacibi odur ki, cavanlar orada oynasınlar, bir neçə ildən sonra əsas komandaya cəlb olunsunlar".

# Qara Qarayevdən narkomaniya ilə mübarizə çağırışı

***Millimizin və "Qarabağ"ın futbolçusu Qara Qarayev insanları narkomaniyaya qarşı mübarizəyə çağırıb.***

Bununla bağlı o, özünün "Feysbuk" hesabında yazıb:

"Ona "ağ ölüm" deyirlər. Minlərlə insanın taleyini qaraya boyayan narkotiklərə qarşı mübarizə hər birimizin məsuliyyətidir. Düşüncəli, ayıq, savadlı cavanlar artdıqca, narkotiklərdə təsəlli və "xilas" axtaranların sayı azalar. Gəlin, gələcəyimizi birlikdə düşünək. Bunun üçün cəmiyyətimizin hər bir üzvünü narkomaniya



bəlasına qarşı mübarizəyə səsləyirəm. Bu mübarizədə fəal olaq, sağlam, işıqlı gələcək naminə bu işə laqeyd yanaşmayaq".

Qarayev Ailə, Qadın, və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə Gənclər və İdman Nazirliyinin müştərək layihəsində iştirak etməkdən qürur duyduğunu yazıb: "Əminəm ki, Lənkəranda keçirilən maraqlı, maarifləndirici təlimlər, idman yarışları sağlam həyat tərzinin təbliğatı işinə öz töhfəsini verəcək. Bu hərəkata dəstək olan hər kəsə dərin təşəkkürümü bildirirəm".

# "Mançester Yunayted" yeni baş məşqçisini bu həftə açıqlayır

***"Mançester Yunayted" rəhbərliyi futbolçulara "Ayaks"ın çalışdırıcısı Erik ten Haqın kluba baş məşqçi təyin olunması barədə məlumat verib.***

Qol.az xəbər verir ki, bu barədə "Mirror" nəşri məlumat yayıb. Bildirilib ki, klub niderlandlı mütəxəssisin təyinatı ilə bağlı İngiltərə Premyer Liqasının 34-cü turunun "Arsenal"la aprelin 23-də keçiriləcək oyundan sonra rəsmi açıqlama yayacaq. Qeyd edək ki, "qırmızı şeytanlar"ı hazırda Ralf Ranqnik çalışdırır. 63 yaşlı mütəxəssis 2021-ci il dekabrın 3-dən komandaya rəhbərlik edir. Xatırladaq ki, 33 oyundan sonra "Mançester Yunayted" Premyer Liqanın turnir cədvəlində 54 xalla 6-cı yerdədir.





# "Biz iki xal itirsək, "Liverpul" çempion olacaq" - Qvardiola

***"Mançester Siti"nin baş məşqçisi Xosep Qvardiola Premyer Liqanın 30-cu turunda "Brayton" üzərində qələbəni (3:0) şərh edib.***

Bu qələbə sayəsində "şəhərlilər" yenidən liderliyə qayıdıb. Hazırda onlar 77 xalla birinci, "Liverpul" isə 76 xalla ikinci yeri tutur.

Qvardiola qarşıda onları daha məsuliyyətli və ağır oyunların gözlədiyini söyləyib: "Bizim Premyer Liqanı yekunlaşdırmaq üçün bir ay vaxtımız var. Nə etmək lazım olduğunu da bilirik. Əgər iki xal itirsək, "Liverpul" çempion olacaq".

Qvardiola futbolçusu Kevin de Brüyne barədə də danışıb: "Kevin yaxşı formada olanda və mənən hazır olanda bənzərsiz futbolçu olur. Bu, onun əla oyunlarından biri idi".

# "15-ə yaxın futbolçu "Mançester Yunayted"i tərk etməyə hazırlaşır"

***"Görünən budur ki, heç kim bu komandada qalmaq fikrində deyil və hamı "Mançester Yunayted"i kütləvi şəkildə tərk etmək istəyir".***

Qol.az-ın Briyaniya mətbuatına istinadən yaydığı xəbərə görə, bu sözləri "Mançester Yunayted"in sabiq müdafiəçisi Rio Ferdinand deyib. O, komandanın hazırkı nəticələri barədə danışarkən deyib:

"Mənə elə gəlir ki, 15-ə yaxın futbolçu çemodanını yığıb "Mançester Yunayted"i tərk etməyə hazırlaşır. Belə bir şey nə vaxtsa olubmu? Komandanın yeni baş məşqçisi Eynşteyn olmalıdır ki, hər şeyi düzəltsin".

Qeyd edək ki, hazırda "MY" Premyer Liqada 33 oyundan sonra 6-cı yeri tutur. Komanda ÇL-də mübarizəni isə 1/8 finalda "Atletiko"ya uduzaraq (1:1, 0:1) dayandırıb.

# Asensioya 7 milyonluq təklif

***"Real" futbolçusu Marko Asensioya yeni müqavilə təklif edib.***

İspaniya nəhəngi yarımmüdafiəçini saxlamaqda maraqlıdır. Madrid klubu Asensio ilə 4 illik anlaşma bağlamaq istəyir. Bununla da gələn il azad agent statusu alacaq 26 yaşlı futbolçu ilə əməkdaşlıq daha üç il uzadılacaq.

O, yeni müqaviləyə imza atsa, 2026-cı ilin yayınadək "Real"ın formasını geyinəcək. Asensioya ildə 7 milyon avro təklif olunub.

# Renatın komandası tarixində ilk dəfə finalda

***Millimizin futbolçusu Renat Dadaşovun formasını geyindiyi "Tondela" Portuqaliya kubokunda yarımfinalın cavab oyununa çıxıb.***

Komanda "Marfa" ilə üz-üzə gəlib. Matç 1:1 hesabı ilə başa çatıb. R.Dadaşov start heyətdə meydana daxil olub və 55-ci dəqiqədə əvəzlənib.

"Mafra" - "Tondela" - 1:1

Qollar: Paçeko, 45 (1:0), Boselli, 89 (1:1)

İlk oyun - 1:3

İlk görüşdə 3:1 hesabı ilə qalib gələn "Tondela" iki qarşılaşmanın nəticəsinə əsasən, tarixində ilk dəfə finala yüksəlib. Komandanın həlledici oyunda rəqibi "Portu" - "Sportinq" cütünün qalibi (ilk oyun - 2:1) olacaq.